# Şeytanın məkrli bir oyunu: İnsanlara tapınma dini

Allah bir-biri ilə çəkişən bir neçə şərikli ağası olan kişi ilə tək bir ağası olan kişini məsəl çəkir. Onlar məsəlcə eyni ola bilərmi? Həmd Allaha məxsusdur, lakin onların əksəriyyəti bunu bilmir. (Zumər surəsi, 29)

Harun Yəhya
(Adnan Oktar)

# İçindəkilər

Yaradılış həqiqəti
Giriş: "İnsanlara tapınma dini" nədir?
İnsan Allaha qulluq etmək üçün yaradıldı
Şirk qoşan bir cəmiyyət hansı vəziyyətə düşər?
Bəzi insanları bu batil dini yaşamağa sövq edən yanlış məntiqlər
İnsanlara tapınma dininin "desinlər" və "deməsinlər" qanunları
Qurandan gözəl bir nümunə: hz. Məryəm xarakteri
İnsanlara tapınma dinindən xilas olmaq üçün düşünmək
Darvinizmin süqutu

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini

səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# Giriş:
# "İnsanlara tapınma dini" nədir?

Tarix boyu bəzi cəmiyyətlərdə, Allahın insanlardan nə istədiyi deyil, insanların bir-birlərindən nə gözlədikləri daha əhəmiyyətli olmuşdur. Bəzi insanlar, Allahın haqq kitabında bildirdiyi hökmlərdən, insanlara əmr etdiyi həyat tərzindən xəbərsiz şəkildə, özlərini cəmiyyətin və yaşadıqları ictimai mühitin gözləntilərini yerinə yetirməyə şərtləndiriblər.

Dövrümüzdə Quran əxlaqını yaşamayan cəmiyyətlərə baxdığınız vaxt, Allahın əmr və qadağalarının bir çox insan tərəfindən tamamilə bilinmədiyini və tətbiq edilmədiyini asanlıqla görə bilərsiniz. Üstəlik, bir çox insan bu vəziyyətdən ötrü narahat olmaz. Allahın gücü, Onun rizasını qazanmağın nə qədər əhəmiyyətli olduğu, Onun əmrlərinə itaət edilmədikdə Allah Qatında necə qarşılıq alınacağı demək olar ki, heç düşünülmür və çox insan bu mövzuları ağlına belə gətirmir. Halbuki eyni insanlar ətraflarındakı insanların özləri barədə nə düşündükləri, özlərindən nə gözlədikləri, onlara özlərini daha çox bəyəndirmək, daha çox sevdirmək üçün nələr etməli olduqları kimi bir çox mövzuyla yaxından maraqlanarlar. Beləleri insanlara, Allahdan daha çox sevgi və bağlılıq yönəldilən belə sistemin içində yaşayır və bunun yanlış ola biləcəyinə ehtimal belə vermirlər.

Bu, olduqca kökləşmiş, azğın bir düşüncə və həyat tərzi, insanların maddi və mənəvi imkanlarını səfərbər etmələrinə səbəb olan, hətta ömürlərini bu yolda qoyacaq qədər onları öz təsiri altına alan yanlış inanc formasıdır. Bu inanc forması, öz əmrləri və qadağaları, doğruları və yanlışları olan, üstəlik, hər kəsin də bunlara əməl etməsinə məcburiyyət gətirən batil bir dinə çevrilmişdir. Bu batil dinin yaşandığı cəmiyyətlərdə hər insan öz ictimai mühitinin gözləntiləri istiqamətində hazırlanmış bu proqram paketinə tabe olmaq məcburiyyətindədir. Çünki ancaq bu yolla, o insanların arasında yaşaya bilər. Əks halda təcrid olunub, alçaldılar. Digər insanlar, istər baxışları, istərsə də rəftar və danışıqlarıyla, özləriylə uyuşmayanları özlərindən aşağı hesab etdiklərini açıq şəkildə hiss etdirərlər.

Həmin insanın bu vəziyyətə düşməmək üçün, bütün gün ərzində, unutmadan və fasiləsiz şəkildə öz-özünə təkrarlamalı olduğu **bəzi şüarları var. Məsələn, mənim barəmdə ayıqdır, ağıllıdır, gözəldir, şəndir, mehribandır, bacarıqlıdır desinlər, lakin əsla xəsisdir, eqoistdir, safdır, cahildir deməsinlər...** Bu batil dinə tabe olan insan, bütün bunları, eynilə bir ibadət kimi, imtina etmədən və ləngitmədən böyük diqqətlə yerinə yetirər. Ətrafındakı insanların, özündən razı olacaqları bir şəxsiyyət formalaşdırmağa böyük səy göstərər. Diqqətlə davam etdirdiyi bu tətbiqlər nəticəsində, insanlara Allahdan daha çox dəyər verən, onların rizasını qazanmaq üçün önünə çıxan hər təklifi qəbul edən və bütün diqqətini insanlara yönəltmiş bir insana çevrilər. Artıq bu insan, insanların bir-birinə ibadət etdiyi batil bir dini sistemin içinə həbs olmuşdur. Gizlində yaşanan bu gizli dinin əzmkar mənsubuna çevrilmişdir.

Bu batil din, Allahı tərk edib insanlara tapınmağı əmr edən bir dindir. İnsanlara hərisliklə bağlanmağı simvolizə edən və adını **"insanlara tapınma dini"** qoya biləcəyimiz bu batil inanc əlinizdəki kitabın əsas mövzusunu təşkil edir. Allah, Quranın bir çox ayəsində insanları bu azğın inancdan xilas olub, yalnız Ona qulluq etməyə dəvət etmişdir. Bu ayələrdən birində belə buyurulur:

**Siz Allahı qoyub ancaq bütlərə ibadət edir və yalan uydurursunuz. Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz sizə ruzi verməyə qadir deyillər. Elə isə ruzini Allahdan diləyin, Ona ibadət edin və Ona şükür edin. Siz ancaq Ona qaytarılacaqsınız". (Ənkəbut surəsi, 17)**

Biz bu əsərdə, bəzi insanların həm dünyalarını, həm də axirətdəki sonsuz həyatlarını böyük təhlükə altına salan və onları, Allah yerinə Onun yaratmış olduğu insanları ilahlaşdırmağa (Allahı tənzih edirik) məcbur edən bu şeytani sistemin quruluşunu və insanları necə öz nəzarəti altına saldığını dövrümüzdən bəzi nümunələr verərək izah edəcəyik. Belə insanlara, özləri üçün hələ də vaxt olduğu halda, bu batil dinin cadusundan xilas olmaları üçün nələr etməli olduqlarını Quran ayələriylə açıqlayacağıq.

Unudulmamalıdır ki, bu azğın din, dünyadakı bəzi cəmiyyətləri nə qədər öz təsiri altına almış olsa da, ağla və güclü iradəyə malik bir insan üçün, bu batil sistemi yaşamaqdan imtina etmək olduqca asandır. Çünki ediləcək şey, yalnız Allaha səmimi iman etmək, Ondan başqa heç bir tanrı olmadığına qəti olaraq inanmaqdır. Allah, iman edən qullarının yolunu açar, onları doğru yoluna yönəldər. Quranı və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini vəsilə edərək, yaşadıqları qaranlıq həyatdan xilas olmalarını təmin edər. Allah bir ayəsində möminləri belə müjdələyir:

**Allah, iman edənlərin vəlisi (dostu və dəstəkçisi)dir. Onları zülmətlərdən nura çıxardar... (Bəqərə surəsi, 257)**

## "Allah həmişə yaxşı insanların tərəfindədir"

**Adnan Oktar**: *"İnsanların doğru və gözəl olan şeydə birləşməsi o qədər də çətin deyil. Lakin israrla, doğru və gözəl şeyi müdafiə edənlər, çox iradəli, mətanətli və qətiyyətli olmalıdırlar. Başqa bir şey yoxdur. Yoxsa onsuz da Allah həmişə yaxşıların, gözəlliklərin, doğruların tərəfindədir, hadisələr də həmişə bu istiqamətdə inkişaf edər. Diqqət edirsinizsə, Allah bizə həmişə güc və imkan verir. Düzdür qarşımıza çox maneələr çıxır, daha çox maneə çıxır, lakin yollar həmişə açılır". (Hörmətli Adnan Oktarın 13 aprel 2011-ci il tarixli müsahibəsindən)*

# İnsan Allaha qulluq etmək üçün yaradıldı

İnsan Allahın yaratdıqları arasında şüurlu, doğru və yanlışı ayırd etmə bacarığına malik bir varlıqdır. Bundan ötrü də, Allahın varlığının dəlillərini, üstün yaratma gücünü qavraya biləcək, dünya və axirət həyatının əsil məqsədini anlaya biləcək potensiala sahibdir. Lakin sahib olduğu bu üstün xüsusiyyətlər ona bəzi məsuliyyətlər yükləyir. Çünki bütün bunları ağlıyla qavraya bilən bir insan, əsil qulluq etməli olduğu gücün Allah olduğunu və Allahdan başqa ilah olmadığını anlayar. Özünə dünya həyatında yüklənilən məsuliyyətin əslində Allaha iman etmək olduğunu dərk edər. Allah Quranda qullarına belə buyurur:

**O, göyləri və yeri nümunəsiz olaraq yaradandır. Onun zövcəsi olmadığı halda övladı necə ola bilər? Hər şeyi O xəlq etmişdir. O, hər şeyi bilir. Budur sizin Rəbbiniz olan Allah. Ondan başqa məbud yoxdur. Hər şeyin Yaradıcısı Allahdır! Elə isə Ona ibadət edin! O, hər şeyi Qoruyandır. (Ənam surəsi, 101-102)**

Bu çox açıq bir həqiqətdir ki, dünya həyatında axtarılan rahhatlıq, xoşbəxtlik və müvəffəqiyyətin təməlində insanların özlərinə yüklənilən məsuliyyəti bilmələri və yalnız Allaha qulluq etmələri yatır. Bu vəziyyət, ictimai baxımdan da keçərlidir və cəmiyyətdə müəyyən tarazlığın meydana gəlməsini təmin edir. Lakin əksi olduqda, yəni Allahın varlığını inkar edənlərin, Onun verəcəyi cəzadan və axirət gününün gətirəcəklərindən qorxmayanların sayı artdıqda, bəhs etdiyimiz bu tarazlıq pozular. İnsanların Allaha qul olduqlarını unudub başqa varlıqlara yönəlmələrinin mühüm nəticəsi olaraq, əxlaqi pozulma, insan münasibətlərindəki korlanma, mənfəətə əsaslanan əlaqələr, güclünün zəifi əzməsi, mərhəmətsizlik, zalımlıq, saxtakarlıq, düşmənçilik kimi şeylər cəmiyyətdə asanlıqla vüsət alar. Bunun nəticəsində isə, ailə və cəmiyyət nizamı, ölkə dincliyi və dünya sülhü təhlükə altına girər. Quranda, insanların Allahın əmrlərinə itaət etməyib nəfslərinin istəklərinə uymalarının, insanlar arasında ciddi degenerasiya yaradacağı belə bildirilir:

**Əgər haqq onların nəfslərinin istəklərinə tabe olsaydı, göylər, yer və onlarda olanlar fəsada uğrayardı. Doğrusu, Biz onlara Zikr gətirdik, onlar isə özlərinə verilən Zikrdən üz döndərirlər. (Muminun surəsi, 71)**

Hal-hazırda insanların əksəriyyəti, yaşadıqları və həmişə gileyləndikləri degenerasiyanın kökündəki səbəblərin, öz eqoist istəklərinə uymalarının və Allaha şərik qoşmalarının səbəb olduğunu düşünməzlər. Bundan ötrü də, çıxış yolunu müxtəlif şeylərdə axtararlar. Yalnız iqtisadi, ictimai və mədəni islahatlar apararaq, ölkənin zənginliyini artıraraq və texnologiyasını inkişaf etdirərək problemlərini həll edə biləcəklərini düşünərlər. Halbuki şirkdən tamamilə qurtulmadan və insanlarda güclü Allah inancı yaratmadan, bu üsulları tətbiq etmək qəti çıxış yolu gətirməz. Həmişə yeni çıxış yolları tapılmasına baxmayaraq, Allahın əmr etdiyi gözəl əxlaqa zidd hərəkətlərin davam etdirilməsindən ötrü, heç bir qəti müvəffəqiyyət qazanılmaz.

İnsanların yaşadıqları bu qaranlıq və ürküdücü həyat tərzindən xilas olmalarının, rahatlıq və əmin-amanlığın hökm sürdüyü mühit içində yaşaya bilmələrinin tək yolu var. Bu yol, cəmiyyəti meydana gətirən fərdlərin "insanlara tapınma dini"nin pəncəsindən xilas olmaları,

yalnız Allaha iman etmələri və Allahın Qurandakı bildirdiyi əmrlərini yerinə yetirib qadağalarını pozmamaqdır. Bu, bütün insanlar üçün mütləq qurtuluş deməkdir. Çünki insanı Allah yaratmışdır və onun ruhunun nəyə ehtiyac duyduğunu da ən yaxşı Allah bilir. Quranda bu həqiqət belə bildirilir:

**Allah, Onun rizasını arayan şəxsləri bu Kitabla əmin-amanlıq yollarına yönəldir, onları Öz icazəsi ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir. (Maidə surəsi, 16)**

# Şirk qoşan bir cəmiyyət hansı vəziyyətə düşər?

Bir cəmiyyətdə "insanlara tapınma dini"nin hakim olduğunu anlamağımızı təmin edəcək bəzi əlamətlər vardır. Bunlar arasındakı ən təməl əlamət, Allahın varlığını və hər an özləriylə birlikdə olduğunu unutmalarının insanlarda yaratdığı qafil rəftarlardır. Bu rəftarları mənimsəyən və Allahın rizasını unudub insanların özündən istədiklərini (din əxlaqına zidd olsa belə) gözü yumulu halda yerinə yetirən bir insan, özünə edilən hər cür təhqiri və alçaldıcı hərəkəti də gözə almış olar.

Buna, dəstələrinə qoşulmağı istədiyi insanlar, özü barədə "uyğundur" desinlər və aralarına qəbul etsinlər deyə, Quran əxlaqına tamamilə zidd rəftarlar edən biri nümunə olaraq verilə bilər. Səhvlik etdiyini bildiyi halda, yalnız insanlar özünü bəyənməsi üçün, hər cür çirkin rəftarı edə bilən bir insan, həm dünyada bunun vicdan əzabını yaşayar, həm də axirətdə səmimiyyətsizliyinin qarşılığını alar. Bu insan, insanların gözünə girdiyini zənn etdiyi halda, Allah onun əsil niyyətini tamamilə bilir. O, Allahı unutmuşdur, lakin Allah onu hər an görür və qəlbində gizlətdiyi niyyətini bilir. İnsanlar bu rəftarı qarşısında onun barəsində müsbət düşüncələrə sahib olsalar da, Allah həmin bu insanın səmimiyyətsiz olduğunu bilir.

Məsələn, olduqca pis əxlaqa sahib olduğuna, kasıb və ehtiyac sahibi insanların haqqını yediyinə, Allahın qadağan etdiyi yolla haqsız qazanc əldə etdiyinə şahid olmasına baxmayaraq, yalnız özünün yüksəlməsi üçün, müdirinin bütün bu çirkin rəftarlarını görməzliyə vuran insanı da Allah görür. Bu insan, həm müdirinin özü barədə; "çalışqan və çox sadiqdir" deməsi üçün var gücüylə çalışdığı, həm də Allahın haram etdiyi hərəkətə göz yumduğu bir vaxtda, Allah onun bütün düşüncələrinə və sözlərinə şahid olar. Allah rizasını qazanmaq üçün heç bir səy göstərmədiyi halda, hər hansı insanın rizasını qazanmaq üçün etdikləri, Allah Qatında yazılır.

Məhz bu cür yanlış inanclara sahib insanlar, qarşı tərəfdə təsir oyadaraq, onları razı salmaq üçün, sanki iplərini insanların idarə etdiyi bir kuklaya çevrilər və özlərindən istənilləni (doğru, yanlış, haram, halal demədən) tam şəkildə yerinə yetirərlər. Sırf dünyəvi arzularını və bəzi nəfsani istəklərini təmin edə bilmək üçün, Allahı unutduran, Onun rizasını güdməkdən uzaqlaşdıran bu batil sistemin bir parçası olmağı qəbul edərlər. İnsan heysiyyətini sındıran, insanı alçaldan, bəsitləşdirən bir həyat tərzini mənimsəməyi gözə alar, başqa insanların boyunduruğu altında, imanın gətirdiyi insani heybəti itirmiş şəkildə yaşayarlar. Bunun nəticəsində də, bir-birlərinə qarşı olduqca səmimiyyətsiz, ədəbsiz və iki üzlü rəftarlar edər, həqiqi mənada sevgini bilməyən, yalnız öz mənfəətləri üçün yaşayan ürküdücü bir insan cəmiyyətinin yaranmasına səbəb olarlar. Özlərini, həqiqi dostluğun yaşanmadığı, tamamilə mənfəətə əsaslanan əlaqələrin hakim olduğu bir sistemin içinə həbs edərlər. Öz əlləriylə qurduqları bu sistem içində isə, İsra surəsində bildirildiyi kimi, Allahın köməyindən və mərhəmətindən uzaq şəkildə tənha vəköməksiz qalarlar:

**Allahla yanaşı başqa ilahlar qəbul etmə, yoxsa zəlil və tənha (köməksiz) qalarsan. (İsra surəsi, 22)**

Şirk qoşaraq "insanlara tapınma dini"nin mənsubu olan insanların bu vəziyyətə düşmələrinin kökündəki bəzi səbəbləri belə sadalaya bilərik;

## Allahı unudaraq insanların rizasını qazanmağa çalışarlar

Şirk qoşan insanlar Allahın varlığını və kainat üzərindəki mütləq hakimiyyətini unudublar. Bu qəflətdən ötrü də, özlərinin müstəqil gücə sahib olduqlarını zənn edərlər. İstədikləri hər şeyi edə biləcəklərini, istədikləri həyatı planladıqları kimi yaşaya biləcəklərini, heç kəsin onlara qarışa bilməyəcəyini, öz həyatlarına hakim ola biləcəklərini düşünürlər. Heç kəsin üzərlərində hakim olmasını qəbul etməz və asi xarakterə sahib olarlar. Allahın sonsuz gücünü, hər şeyi nəzarəti altında saxladığını, özlərinin isə, aciz qul olduqlarını görməzlikdən gələrlər. Bütün kainatın, Allahın müəyyənləşdirdiyi taleyi olduğunu və heç bir varlığın, özü üçün müəyyənləşdirilmiş olan bu taledən kənara çıxa bilməyəcəyini qavraya bilməzlər. Nəticə etibarilə də, dünyada yalnız öz arzu və istəklərini gerçəkləşdirəcəkləri bir həyat tərzi yaşamağa çalışarlar; Allahın rizasını görməzlikdən gələrlər.

Halbuki bu insanlar, həqiqətlərdən xəbərsiz şəkildə özlərini bu qədər məsuliyyətsiz hiss etdikləri, yəni Allahın varlığını unutduqları halda, Allah hər an onlarla birlikdədir. Etdikləri hər şeyi görür, Allahı unudub insanların rizasını qazanmaq üçün göstərdikləri səyi bilir. Məsələn, birinə olan sevgisini sübut edə bilmək və onun sevgisini qazana bilmək üçün, bir insanın göstərdiyi səyə, özünü ona sevdirəcək rəftarlar göstərməkdəki həssaslığına, bir sözlə, etdiyi hər şeyə Allah şahiddir. Quranda, Allaha şirk qoşanların insanların rizasını qazanmaq üçün göstərdikləri səylər belə bildirilir:

**İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini Ona tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür... (Bəqərə surəsi, 165)**

Bu xarakterə sahib bir insan, sevdiyi insanın özü barəsində; "məni həqiqətən sevir, mənə dəyər verir" deməsi üçün, göstərdiyi bu böyük şövqü və istəyi Allaha qarşı göstərməsi tələb olunduqda bu təklifi qəbul etməz. Məsələn, beş vaxt namaz qılması tələb olunsa, böyük ehtimalla bu təklifi qəbul etməz. İmkanlarının və vaxtının məhdud olduğu, fasiləsiz iş rejimi şəraitində namaza vaxt ayıra bilməyəcəyi kimi, bəhanələr irəli sürər. Çünki bu ibadəti yerinə yetirdiyi təqdirdə demək olar ki, ictimai ətrafındakı heç kəs onu tərifləməyəcək və alqışlamayacaq. Yəni onun yanlış dünyagörüşünə görə, bu ibadəti yerinə yetirməyin onun üçün, müəyyən faydası olmayacaq. Hətta insanların onlar barədə, "namaz qılır, dinə üz tutdu, çox dəyişdi" deməmələri üçün belə, bu ibadəti etməkdən imtina edə biləcək qədər qafil ola bilər. Etdiyi bu seçim nəticəsində, müəyyən sayda insanın rəğbətini və səthi sevgisini qazandığı halda, Allahın, qulları üçün fərz buyurduğu mühüm bir ibadəti yerinə yetirməyərək Onun sonsuz sevgisini və rəhmətini itirdiyini dərk etmir.

Məhz bundan ötrü də, Allah Quranda qullarını insanların rizasını qazanmağa çalışıb Öz rizasını qazanmağı unutma təhlükəsinə qarşı xəbərdar etmişdir. İnsanların şirkin istənilən formasından imtina edib, Özünə yönəlmələrini və namaz qılmalarını bir ayədə belə əmr etmişdir:

**“Sidq ürəkdən xalis bağlılar” olaraq, Ona tərəf yönəlin və Ondan qorxun, dosdoğru namaz qılın və müşriklərdən olmayın. (Rum surəsi, 31)**

## İnsanlardan, Allahdan qorxduqlarından daha çox qorxmaları

Bir gücə və ya hadisəyə qarşı qəlbində ciddi qorxu hiss keçirmək, insana bir çox şeyi ən yaxşı şəkildə edə biləcəyi iradə verər. Bu qorxunun dərəcəsi, öz iradəsiylə edə bilməyəcəyini düşündüyü hadisələr qarşısında belə, insana gözlənilməz şəkildə qəti və konkret qərarlar aldırar.

İnsanlar qəlblərində yaşadıqları dərin qorxu hissinin dərəcəsinə görə, özlərindən istənilən hər şeyi edə biləcək hala gələrlər. Məsələn, yoxluq çəkən və təcili surətdə pula ehtiyac duyan bir insan, aldığı iş təklifi qarşısında bu işə girə bilmək üçün, əlindən gələn hər şeyi edər. Qarşısına çıxan bu fürsəti qaçırmağı gözə ala bilməz. İşlə əlaqədar görüşdüyü insanlara özünü ən yaxşı halıyla tanıtmağa diqqət yetirər. Səhv etməkdən qorxar. Qarşısındakı insanlara olduqca hörmətli davranar, onların, şəxsiyyətinə və iş təcrübəsinə güvənmələri üçün əlindən gələn hər cür diqqəti göstərər. Həmin iş yerinin qanunları, orada işləyən insanlarda axtarılan xüsusiyyətlərin nə olduğu kimi məlumatları görüşdən əvvəl öyrənməyə çalışar, görüş vaxtı da bu xüsusiyyətlərə zidd olan ifadələr işlətməməyə diqqət göstərər. Bir an belə dalğın olmaz və ya qeyri-münasib rəftar göstərməz. Gələcəyi barədəki bitməyən qorxusu və narahatlıqları onu ayıq saxlayar. İş yerinin səlahiyyətli şəxslərinin görüşdən sonra özü barədə müsbət qərar vermələri və özü barədə fikir bildirərkən "tam axtardığımız insan" demələri üçün əlindən gələn hər cür səyi göstərər.

Başqa bir insan da, yanında işlədiyi iş sahibinin şirkət içində görmək istəmədiyi hərəkətləri edərkən tutulmaqdan çox qorxar. İşinə yubanmamağa, xüsusi telefon danışıqları aparmamağa, bir sözlə, həmin iş yerində qeyri-münasib rəftarlar göstərməməyə diqqət göstərər. Digər şirkət işçilərini də, bu mövzulara diqqət göstərməli barəsində xəbərdar edər. Özünə işində intizamlı olmayan, ciddiyyətsiz bir insan deyilməsindən çox qorxar. Çünki bu kimi mənfi rəylər, dünyada maddi itkiyə məruz qalmasına səbəb olacaq, yaxşı bir həyat yaşamasına mane olacaq. Əlbəttə ki, bir insan işində intizamlı olmalı, qeyri-münasib rəftarlar göstərməkdən çəkinməlidir. Lakin burada yanlış olan, bir insanın bu gözəl rəftarları, yalnız insanlardan qorxduğu və onlardan çəkindiyi üçün etməsidir ki, belə xarakterdə onsuz da gözəl rəftarlar daimi ola bilməz. Allahdan qorxmayan bir insan, insanların özünü görməyəcəyinə və onların əks reaksiyasıyla üzləşməyəcəyinə inandığı hallarda, bu intizama uymayan istənilən rəftarı asanlıqla göstərə bilər. Məhz buna görə də, insan gözəl rəftarlar göstərərkən də çox mühüm bir həqiqəti unutmamalıdır. Bu həqiqət, qorxulmalı olan yeganə güc sahibinin Allah olmasıdır. İnsanların, qarşılarında həyəcanlandıqları, qorxu hissinə qapıldıqları, gözlərində böyütdükləri insanları və hadisələri yaradan və öz nəzarəti altında saxlayan Allahdır. Allah Qatında onların nə zənginliklərinin, nə də güclərinin əhəmiyyəti var. Tək əhəmiyyətli şey, təqvaları və gözəl əxlaqlarıdır. Həmçinin insanlar yalnız talelərində müəyyənləşdirilmiş hadisələrlə qarşılaşırlar. Bu nümunədəki insanın taleyində o işə girməsi müəyyənləşdirilsə, Allahdan başqa heç bir güc bu nəticəni dəyişdirə bilməz. Hətta nə qədər yanlış, nə qədər böyük axmaqlıqlar etsə də, Allah istədiyi təqdirdə, həmin insan o işə girər. Lakin taleyində başqa şey müəyyənləşdirilibsə də, belə olan halda, istənilən səyi göstərsə də, o işə girə bilməz. Allahın müəyyənləşdirdiyi taledən kənara çıxa bilməz. Quranda bütün hadisələrin Allahın məlumatı daxilində gerçəkləşdiyi belə bildirilir:

**Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, Yazıda müəyyən edilmiş olmasın. Şübhəsiz ki, bu, Allah üçün çox asandır. (Hədid surəsi, 22)**

Unudulmamalıdır ki, burada nümunə olaraq bəhs etdiyimiz insan, hələ o işə girə bilmədən ölə bilər. O zaman həyatı boyu yaşadığı dünyəvi qorxuların, insanlara isnad etdiyi müstəqil gücün mənası da qalmaz. Göstərdiyi bütün səylər hədər gedər. Axirət günü, qənaətlərinə böyük əhəmiyyət verdiyi insanların heç biri özünə dəstək verə bilməz. Həyatı boyu Allahın rizasını görməzlikdən gəlib insanları rizasını qazanmağa çalışaraq etdiklərinin qarşılığını min il deyil, on min il deyil, milyon və ya milyard il belə deyil, sonsuza qədər davam edəcək cəhənnəm əzabı içində qalaraq alacaq. Həyatı boyu etdiklərindən ötrü tövbə edib bağışlanma diləmədiyi halda Allah, bu insanı işlədiyi günahlardan və etdiyi pisliklərdən ötrü, sonsuz cəhənnəm həyatına məhkum şəkildə yaşada bilər.

Məhz bütün bu həqiqətlər əsasında düşünüldükdə, Allah qorxusunun bütün bu qorxulardan daha üstün olduğu daha yaxşı aydın olacaq. Quranda **"...Allahdan qorxun və bilin ki, siz Onun hüzuruna toplanacaqsınız" (Bəqərə surəsi, 203)** şəklində bildirilərək bu böyük həqiqətə diqqət çəkilir.

## "Allahdan başqa bir şeydən qorxmaq haramdır"

**Adnan Oktar:** *Mən yalnız Allahdan qorxuram. Allahdan başqa bir şeydən qorxmaq haramdır. Allah ayəsində bunu qadağan etmişdir və O: "yalnız Məndən qorxun!" deyir. Onsuz da çox məntiqsizdir, Allahın yaratdığı varlıqlar, Allahın təcəllisi olaraq meydana gəlir. Yəni Allahdan başqa qorxulacaq bir şey yoxdur, nə üçün insanlardan qorxaq? (Hörmətli Adnan Oktarın 13 iyul 2009-ci il tarixli müsahibəsindən)*

# Bəzi insanları bu batil dini yaşamağa sövq edən yanlış məntiqlər

Bəzi insanlar, İslam dininin hökmlərini yerinə yetirmək, əmr və qadağalarına uyğun həyat tərzi yaşamaq mövzusunda könülsüz davranırlar. Lakin həmin bu insanlar, sanki insanları ilahlaşdıran (Allahı tənzih edirik) bir sistemin içində yaşamaq mövzusunda olduqca istəklidirlər. Məhz bu iki zidd vəziyyət, dərhal ağla insanlara tapınma dininin "insanları hansı vədlərlə aldatdığı" sualını gətirir. Bu sual üzərində düşündükdə isə, qarşımıza, belə insanların Allahın qüdrətini qavramaq məsələsində böyük çatışmazlıq içində olduqları həqiqəti çıxır.

Allahın gücünün sonsuzluğunu və kainatı yaratma məqsədini anlamayan insanlar, həyatlarını öz qoyduqları, Quran əxlaqına uyğun olmayan, cahil məntiqlərlə yaşamağa çalışırlar. Bu məntiqlər bir tərəfdən insanlara tapınma dininin əsaslarını meydana gətirərkən, digər tərəfdən insanların bu batil dini yaşamaq mövzusunda ortaya atdıqları bəhanələri meydana gətirər. Halbuki Allah Quranda yanlış səbəblər və məntiqlər irəli sürərək, küfrlərini öz aləmlərində qanuni göstərmək istəyənlər barədə; **"onlar cahiliyyə dövrünün hökmünümü istəyirlər? Qəti inanan bir camaat üçün Allahdan daha yaxşı hökm verən kim ola bilər?" (Maidə surəsi, 50)** deyə bildirir.

Bu hissədə, insanların Allahın haqq dinini yaşamaq əvəzinə insanları razı salmağa istiqamətli batil dini yaşayarkən, hansı yanlış səbəblər gətirdiklərindən danışılacaq. Bu yanlış məntiqlərdən bəziləri belədir:

## "Həyatın həqiqətləri" yanlışlığı

Allah insanların, həyatlarının hər anını, Quranda bildirdiyi hökmlər, əmrlər və qadağalar çərçivəsində nizamlamalarını istəyir. Quran, insanların doğrunu yanlışdan ayırd etməsini təmin edən, onlara gözəl və çirkin davranışların nələr olduğunu bildirən, Allahın razı olacağı və olmayacağı rəftarların hansılar olduğunu xəbər verən rəhbərdir. Bundan ötrü də, Allah Ənam surəsində insanların bu mübarək Kitaba tabe olmalarını belə əmr edir:

**Bu, Bizim nazil etdiyimiz mübarək bir Kitabdır. Ona tabe olun və Allahdan qorxun ki, bəlkə sizə rəhm oluna. (Ənam surəsi, 155)**

Lakin insanların böyük hissəsi həyatlarını Qurandakı hökmlər və əxlaq anlayışı çərçivəsində nizamlamazlar. Hətta Quranın Allahın əmrlərinin qeyd olunduğu və tabe olmalı olduqları bir kitab olduğunu belə düşünməzlər. Din əxlaqının və Quranın bütün həyatları üçün, nə qədər əhəmiyyətli olduğunu qavraya bilməzlər. Din əxlaqının ancaq bir neçə məhdud mövzuda həyatlarına yön verə biləcəyini zənn edərək yanılarlar. Çətinlik və sıxıntı içində qalmaları, böyük təhlükəylə üzləşmələri, ciddi və əzab verici narahatlıq hissi yaşamaları, öz gücləriylə yox edə bilmədikləri qorxu hissi keçirmələri və ya ölüm kimi ciddi hadisələrlə qarşılaşmaları vəziyyətlərindən başqa digər hallarda, öz zəif ağıllarıyla, Allaha sığınma ehtiyacı duymazlar. Din əxlaqının yaşanmasının, bütün insanlar üçün zəruri olduğunu qavraya bilməzlər. Bundan ötrü də, bu əxlaqdakı insanlar din əxlaqından həyatları boyu mümkün qədər uzaq

dayanmağa, dinlə əlaqədar heç bir şeyi aralarında danışmamağa diqqət göstərərlər. Allahın adını xatırlamaqdan belə çəkinərlər.

Halbuki insanların yaşaya bilmək üçün, mütləq Allahın hökmlərinə, Kitabında bildirdiyi gözəl əxlaqa ehtiyacları var. İnsan üçün asan və gözəl olan, bizi yaradan Rəbbimizin Kitabındakı əxlaqı yaşamaqdır. Bu əxlaq olmadan, sağlam cəmiyyət strukturunun yaranmasını düşünmək olmaz. Çünki insanın fitrətini, yəni yaradılışdan qaynaqlanan xarakterini düşünmədən ortaya atılan hər cür qanun, istər insanlar, istərsə də cəmiyyətlər üzərində pozucu təsir yaradar və cəmiyyətlərin korlanmasına səbəb olar. Cəmiyyət ciddi ictimai qarışıqlığa sövq edilər, insan münasibətləri pisləşər. Bunların nəticəsində isə, dünya, müharibələrdən, qarışıqlıqdan və zülmdən xilas ola bilməz. Fərdlər də din əxlaqından uzaqlaşıb cahil sistemin qanunlarına tabe olmağa çalışdıqca mənəvi və fiziki cəhətdən müxtəlif problemlərə məruz qalarlar.

Hal-hazırda bütün bu mənfi nəticələrin bir çox ölkədə geniş şəkildə yaşanmasına baxmayaraq, səmimi iman sahiblərini çıxmaq şərtiylə, yerdə qalan insanlar; "əlbəttə ki, din var, lakin bir də həyatın həqiqətləri var" yanlış fikri ilə cahil sistemi yaşatmağa davam edirlər. Bu sistemin təməli din əxlaqının, həyatdakı mütləq zəruriliyini inkar etmək üzərində qurulmuşdur. Bu yanlış məntiqə görə insanların din əxlaqının normaları çərçivəsində yaşaması praktik cəhətdən qeyri-mümkündür. Həmin bu insanlar; din əxlaqı gündəlik həyata daxil edilsə, insanın, dünyanın hər cür nemətindən məhrum qalacağını, dəyişməz həyat tərzi yaşayacağını zənn edərək yanılırlar. Din əxlaqını yaşamağın, guya insanların həyatdan zövq almasına mane olacağını zənn edərlər. Əlbəttə ki, bu, həqiqətlərlə əlaqəsiz düşüncədir. Din əxlaqı, insan ruhunun ən rahat olacağı, ən dinc və yaradıcı olacağı bir cəmiyyət həyatı meydana gətirər. "Həyatın həqiqətləri yalanı"ndan xilas olub, bu üstün əxlaqı yaşayan insanlar, cəmiyyətdə ən sağlam ruh halına sahib, gözəlliklərdən ən çox razı qalan insanlardır, həmişə sülh, tolerantlıq və fədakarlıq mühitinin formalaşmasında aparıcı rol oynayarlar.

Din əxlaqından uzaq insanlar isə, öz zəif ağıllarına görə gözəl əxlaq göstərməyi acizlik və saflıq kimi qiymətləndirərlər. Məsələn, bir insanın, başqaları üçün nə qədər fədakarlıq edirsə etsin qarşılığında, eqoizm və vicdansızlıqdan başqa bir şey görməyəcəyinə, dolayısilə fədakarlıq etməklə ağılsız mövqeyə düşəcəyinə inanarlar. Bundan ötrü də, bir çox cəmiyyətdə fədakarlıq edən insana; "yaxşı niyyətlidir, lakin safdır" gözüylə baxılar. Çünki heç bir mənfəəti olmadığı halda, başqasına yaxşılıq edir və etdiyi üçün, qarşılıq tələb etmir. Onlara görə eqoistliyə eqoistlik, kinə kin, düşmənçiliyə düşmənçilik, sevgisizliyə sevgisizliklə cavab vermək həyatın həqiqi üzünü əks etdirir.

Eləcə də, qarşısındakının, özünə həmişə pislik edən, zərər verən bir insan olmasına baxmayaraq, ona yaxşı davranan, onun yaxşı xasiyyətli olması üçün çalışan, özünə etdiyi pislikləri bağışlayan bir insanın etdiyi bu yaxşılıq, cahil cəmiyyət tərəfindən konkret ağılsızlıq kimi qiymətləndirilər. Bəzi insanlar göstərdiyi gözəl əxlaqdan ötrü həmin insanı; "necə də safdır, mən olsaydım fürsət olduğu halda, intiqam alardım, lazımi cavabı verərdim" kimi sözlərlə alçaldarlar. Çünki Quran əxlaqından uzaq insanların sahib olduğu "həyatın həqiqətləri" məntiqinə görə pisliyə pisliklə cavab vermək guya ən doğru davranışdır. Cahil əxlaqda xeyli rəğbətlə qarşılanılan bu yanlış məntiq, bir düşmənin heç vaxt həqiqi dost ola bilməyəcəyi səhvini müdafiə edir. Bundan ötrü də, insanın nə qədər yaxşılıq edirsə etsin, aradakı düşmənçiliyin yox olmayacağına, əksinə yalnız yaxşılıq edən tərəfin itirmiş olacağına inanılar. Cəmiyyət bu insana, özünə edilən pisliyi qavrayıb dərk edə bilməmiş, aciz insan gözüylə baxar.

Bu yanlış məntiq içində yaşayan insanlar, öz ağıllarınca alçaldıqlarını düşündükləri bu vəziyyətə düşməmək üçün, həyatın həqiqətləri məntiqinə möhkəm şəkildə sarılmalı və insanların reaksiyalarını, rəylərini, düşüncələrini çox yaxşı izləməli olduqlarını düşünərlər. Çünki bəhs

etdiyimiz insan, insanların nə dediyinə həddindən çox əhəmiyyət verər və özünü insanlara nə qədər bəyəndirsə cəmiyyətdə də bir o qədər yaxşı yer tutacağına inanar. Cəmiyyət razı qaldıqdan sonra, hər cür çirkin rəftarı göstərməyin, dünyəvi hədəflərinə çata bilməsi üçün, mütləq işlədiməli olan bir üsul olduğunu düşünər.

Halbuki Quranda Allahın insanlardan, səmimi və yalnız Öz rizasını qazanmağı güdən, heç kəsin nə deyəcəyini düşünməyən, gözəl bir əxlaq istədiyi bildirilir. Rəbbimiz qulları arasında, burada bəhs edilən cahil məntiqin tam əksi olan bir əxlaqın hakim olmasını əmr edir. Buna görə də, bir insan ancaq özünə edilən pisliyə yaxşılıqla cavab verdiyi təqdirdə, Allah Qatında yaxşı bir insan ola bilər. Həmçinin bu rəftar, düşmənçilik yerinə güclü dostluqların qurulmasına vəsilə olan mühüm bir addımdır. Allah bunun nəticəsini Quranda belə müjdələyir:

**Yaxşılıqla pislik eyni ola bilməz. Sən pisliyi yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki mehriban bir dost olar. (Fussilət surəsi, 34)**

Yalnız pisliyə verilən qarşılıqda deyil, hər cür davranışda Quran əxlaqını mənimsəmək yeganə qurtuluş yoludur. Həyatın əsil məqsədi Allahın razı olacağı bir qul olmaq, bunun üçün qarşılıqsız yaxşılıq etmək, fədakarlıq göstərmək, dürüst, ədalətli, səbirli, yaxşılığı əmr edib pislikdən çəkindirməkdə qətiyyətli, qeyd-şərtsiz Allahın rizasını qazanmağa çalışan bir insan olmaqdır. Lakin Quranda bildirilən əxlaqı mənimsəməyən cahil insanlar, həyatları boyu çəkişmə, döyüş, narahatlıq içində yaşayar və bunun həyatın həqiqəti olduğunu zənn edərlər. Saxtakarlıq etmədən, mənfəətpərəst, hiyləgər, iki üzlü olmadan yalnız gözəl əxlaqlı olaraq rahat həyat yaşanıla biləcəyinə qətiyyən ehtimal verməzlər. Dünyanın, öz deyimləriylə; "qurdlar süfrəsi" və ya "yalnız güclülərin həyatda qala bildiyi bir meydan" olduğuna inanarlar. Sonsuzadək davam edəcək axirət həyatının varlığını unudaraq, yalnız qısa dünya həyatına istiqamətli həyat tərzi yaşadıqları üçün; "dünyada nə etsəm cəza almaram" yanlış düşüncəsiylə din əxlaqını tərk edərək yaşayarlar. Qanunlarını insanların uydurduğu saxta bir dünyada qısılıb qalar, sanki ilah hesab etdikləri insanlara (Allahı tənzih edirik) tamamilə kölə kimi bağlanarlar. Bunun nəticəsində isə, Allahın əmrlərinə tabe olmamağın gətirdiyi ağır nəticələrə dözmək məcburiyyətində qalar; dünyada alçaldıcı həyat yaşayar, axirətdə isə bundan olduqca ağrılı əzabla qarşılaşarlar. Onların bu vəziyyəti Quranda belə bildirilir:

**Müşriklər Allaha qoşduqları şəriklərini gördükdə deyəcəklər: "Ey Rəbbimiz! Bunlar bizim Səndən başqa ibadət etdiyimiz şəriklərimizdir!" Bütlər isə onlara: "Şübhəsiz ki, siz yalançısınız!" deyə cavab qaytaracaqlar. O gün müşriklər Allaha təslim olduqlarını bildirəcək və uydurduqları bütlər onlardan uzaqlaşıb qeyb olacaqlar. Kafir olub insanları Allah yolundan sapdıranlara törətdikləri fitnə-fəsada görə əzab üstündən əzab artıracağıq. (Nəhl surəsi, 86-88)**

**Sonra da onlara deyiləcəkdir: "Haradadır şərik qoşduqlarınız – Allahdan başqa ibadət etdikləriniz?" Onlar deyəcəklər: "Onlar bizi qoyub qaçdılar. Xeyr, biz öncə də heç bir şeyə ibadət etmirdik!" Allah kafirləri beləcə azğınlığa salar. "Bu sizin yer üzündə nahaq yerə sevinməyinizə və qürrələnməyinizə görədir! İçində əbədi qalacağınız Cəhənnəmin qapılarına girin!" Təkəbbürlülərin yeri necə də pisdir! (Mömin surəsi, 73-76)**

## "Əksəriyyət edir" yanlışlığı

Bir çox insanın, din əxlaqının tələblərini yerinə yetirməsinə mane olan səbəblərdən biri də, başdan bəri üzərində dayandığımız kimi, bu insanları içində yaşadıqları cəmiyyətin özləri barədə nə deyəcəyindən, nə düşünəcəyindən asılı hala gətirən "insanlara tapınma dini"dir. Bu batil din, gücünü "əksəriyyət edir" yanlışlığından alır. Çünki bəzi cəmiyyətlərdəki insanların böyük hissəsi insanlara tapınma dininin batil həyat tərzini mənimsəmişdir. Bu da ümumiyyətlə atadan oğula keçən, heç kəsin etiraz etməyə gücünün çatmadığı batil bir ənənəyə çevrilmişdir. Eləcə də, bu insanların cəmiyyətin say etibarilə əksəriyyətini təşkil etdiyi kimi, görünmələri bəzi insanları da yanlış istiqamətləndirir, onları haqsız çoxluğun yaşadığı həyat tərzinin və itaət etdikləri qanunların doğru olduğuna inandırır. Halbuki Quranda Allah müsəlmanlara belə əmr edir:

**Onların aralarında Allahın sənə nazil etdiyi Kitabla hökm ver və onların istəklərinə tabe olma. Onlardan ehtiyat et ki, Allahın sənə nazil etdiyi hökmlərin bəzisindən səni sapdırmasınlar... (Maidə surəsi, 49)**

Ayədə də bildirildiyi kimi, Allah insanlara haqsız çoxluğa və onların nəfslərinə uyğun qanunlara tabe olmamalarını əmr edir, onlar arasında Quranla hökm verməyin tək qurtuluş yolu olduğunu bildirir.

Lakin insanların böyük hissəsi, vicdanları razı olmasa da, özlərini çoxluğun həyat tərzinə ayaq uydurmaq məcburiyyətində hiss edərlər. Bunu, cəmiyyətin bir fərdi olmağın tələbi hesab edərlər. Özlərini, "madam ki, bu cəmiyyət içində yaşayırıq, cəmiyyətin qoyduğu qanunlara və uyğun gördüyü həyat tərzinə də uymaq məcburiyyətindəyik" kimi yanlış düşüncəyə (sanki haqq bir dinin əmriymiş kimi) itaət etmək zərurəti içində hiss edərlər.

Din əxlaqının həqiqi mənasını qavramamış bu insanlar, dünyada Allahın əmrlərini çıxmaq şərtiylə, bütün insanların tabe olmalı olduqları bəzi qanunlar olduğu kimi yanlış fikrə qapılar, hər insanın da bu qanunlara əməl etmək məcburiyyətində olduğuna özlərini inandırarlar. Cəmiyyətin fərdlərini razı salmağı öz ağıllarınca, ən zəruri vəzifələrindən biri kimi mənimsəyərlər. Bundan ötrü də, cəmiyyətin; "başqaları nə deyər, insanlar necə qiymətləndirər, nə düşünərlər, mənim barəmdə yaxşıdır, ağıllıdır, zəngindir, comərddir desinlər, mənim haqqımda belə düşünməsinlər, bunu deməsinlər, belə danışmasınlar" kimi sonsuz dövrə çevrilmiş məntiqlərindən xilas olmağı bacara bilməzlər.

Halbuki çoxluğun yaşadığı həyat tərzi, tabe olduqları yanlış qanun və sanksiyalar insanları haqqa yönəltməz. Əksinə Allah Quranda çoxluğa tabe olmağın, insanı doğru yoldan azdıran təhlükə olduğunu belə bildirir:

**Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar. Onlar ancaq zənnə qapılır və ancaq yalan uydururlar. (Ənam surəsi, 116)**

Bundan ötrü də, çoxluğun Quran əxlaqına zidd həyat tərzi seçmiş olması, insanlara qarşı istehzalı, zalım rəftarlar göstərmələri, ailələrinə, hətta dövlətlərinə qarşı üsyankar xarakterə

bürünmələri, Allahın haram etdiyi hərəkətləri heç düşünmədən tətbiq etmələri həmin cəmiyyətdəki digər insanlara təsir etməməlidir. Bu cür insanların əhalinin əksəriyyətini təşkil etməsi də, fərdlərin etdikləri səhvlər üçün, səbəb ola bilməz. Məsələn, bir cəmiyyətin bütün fərdləri cahilcəsinə odu, Günəşi və ya ulduzları özlərinə ilah qəbul etmiş, onlara tapınma azğınlığını etmiş olsalar da, bu, başqa birinin də eyni azğınlığı etməsinə səbəb ola bilməz. Eləcə də, bir cəmiyyətdə fahişəliyə, kələkbazlığa, zalımlığa, oğurluğa və bunlar kimi əxlaqsız davranışlara qarşı səs çıxarılmadıqda bir insan, "əksəriyyət bunu edir" şəklindəki yanlış məntiqdən faydalanaraq eyni əxlaqsızlıqları etmək məcburiyyətində deyil. Yaxud bir cəmiyyətdə yalnız zənginlər hörmət görür, kasıblar, gözəl əxlaqından başqa ortaya qoyacaq heç bir maddi gücü olmayan insanlar əzilirsə, bu, digər insanların da bu yanlış zehniyyəti alovlandıracaq anlayış meydana gətirmələrini tələb etmir. Əksinə, bəzi insanların, vicdanları qəbul etmədiyi halda, sırf çoxluğun qınağından qorxaraq bu zalım məntiqi məqbul etmələri böyük vicdansızlıq olar. Çünki insanın yalnız cəmiyyət tərəfindən qınanılmaqdan, təcrid olunmaqdan və ya pis insan hesab edilməkdən qorxaraq, vicdanıyla doğru olduğuna qənaət gətirdiyi bir şeyi etməkdə bitərəf davranması ağla və vicdana uyğun hərəkət deyil. Quranda Allah müsəlmanların mühüm bir xüsusiyyətinin də insanların qınağından qorxmamaları olduğunu belə bildirir:

**Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah onun əvəzinə Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və qınayanın qınamasından qorxmayan bir camaat gətirər. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah hər şeyi Əhatə edəndir, Biləndir. (Maidə surəsi, 54)**

Yenə başqa bir surədə də İbrahim peyğəmbərin və onunla birlikdə olan möminlərin, özlərini qınayan insanlardan çəkinməyən qətiyyətli rəftar göstərmələri nümunə kimi verilir. Hz. İbrahim (ə.s) və yanındakılar, insanların böyük hissəsinin bütlərə ibadət etdiyi bir cəmiyyətdə yaşamışdır. Lakin bütün qınaqlara, təhdidlərə baxmayaraq, insanlardan deyil, yalnız Allahdan qorxmalarından ötrü, bu cəmiyyətin azğın meyllərinə böyük reaksiya veriblər. Quranda bu vəziyyət belə bildirilir:

**İbrahim və onunla birlikdə olanlarda sizin üçün gözəl bir nümunə vardır. Onlar öz qövmünə dedilər: "Həqiqətən, biz sizdən və sizin Allahdan başqa tapındığınız şeylərdən uzağıq. Biz sizi inkar edirik. Siz bir olan Allaha iman gətirincəyə qədər bizimlə sizin aranızda həmişə ədavət və nifrət olacaqdır!" Yalnız İbrahimin öz atasına: "Mən sənin üçün mütləq bağışlanma diləyəcəyəm. Fəqət Allahdan sənə gələn əzabı dəf edə bilmərəm!" deməsi istisnadır. Onlar dedilər: "Ey Rəbbimiz! Biz yalnız Sənə təvəkkül edir və yalnız Sənə üz tuturuq. Dönüş də yalnız Sənədir. (Mumtəhənə surəsi, 4)**

Hz. İbrahim (ə.s)-ın bu qətiyyəti qarşısında müşrik qövmü onu cəzalandırmağa qərar vermişdir. Lakin buna baxmayaraq hz. İbrahim (ə.s) Allaha bağlılıqda qətiyyətli davranmışdır. Allah bu gözəl rəftarına qarşı onu qövmünün əziyyətindən qurtarmışdır:

**O dedi: "Siz yonub düzəltdiklərinizəmi sitayiş edirsiniz? Axı sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır". Onlar dedilər: "Bundan ötrü bir bina tikin və onu orada odlayın!" Onlar İbrahimə hiylə qurmaq istədilər, Biz də onları rüsvay etdik. O dedi: "Mən Rəbbimə doğru gedirəm. O məni doğru yola yönəldəcəkdir". (Saffat surəsi, 95-99)**

Lakin insanların bir çoxu bu nümunədə gördüyümüz qətiyyəti göstərmir. Qəlbləri Allahdan uzaq olduğu üçün, vicdanlarını da işlətmirlər. Vicdanlarının önünə; "çoxluq edir, çoxluq edirsə doğrusu budur" kimi cahil məntiqlərlə sədd çəkir və Allahdan qafil, insanların rizasına əhəmiyyət verən, onların qınamasından çəkinən bir həyat tərzi yaşayırlar. Həqiqətən də; "insanlar nə deyər", "dostlarım bir daha məni danışdırmaz və məni öz aralarından təcrid edərlər", "hər kəs edir, mən də edim" kimi düşüncələr, insanı, Allahdan başqa varlıqlara tapınan, (Allahı tənzih edirik) Quran əxlaqından tamamilə uzaqlaşıb, dünyaya yönələn bir insana çevirə bilər. Bunun nəticəsi olaraq da, bəziləri zalımlıqlarından xoşlanan, şəfqət, mərhəmət, sevgi, hörmət nədir bilməyən, bəziləri yalnız pula, vəzifəyə əhəmiyyət verən, insanlıqdan, gözəl əxlaqdan anlamayan bir zehniyyətə sahib olmaqda qəbahət görməz. Nümayəndəsi olduğu təbəqədəki çoxluq zalım, lağlağı, pis əxlaqlılardırsa, bundan başqa cür davranmağın təcrid edilməsinə səbəb olacağını bilərək, o da onlar kimi davranar. Müdiri barəsində müsbət fikirlərə sahib olduğu bir insan, olduqca əxlaqsız xarakterə sahib olsa da, onun barəsində müsbət fikirlərə sahib olar. Eləcə də, müdirinin barəsində mənfi fikirlərə sahib olduğu bir insanın, əslində necə xarakterə sahib olduğunu araşdırmağa belə ehtiyac duymadan həmin insan barədə mənfi fikir birldirə bilər. Bu insanlar Allahın və din əxlaqının özlərinə tamamilə unutdurulmuş olmasının normal nəticəsi olaraq, çoxluq belə edir məntiqiylə yaşamağa davam edərlər. Müstəqil şəxsiyyət göstərə bilməzlər. Hər kəs belə yaşayır, belə edir, belə düşünür kimi, yanlış məntiqlərlə, yuxarıda sadaladığımız qruplara bənzər bir ictimai ətrafın mənsubuna çevrilərlər. Hara üz tutsalar özləri kimi çoxluğa tabe olan, insanların rizasını əsas məqsəd halına gətirən insanlarla qarşılaşdıqları üçün, yaşadıqları bu ruh halının qəribəliyini müəyyənləşdirə bilməzlər.

Unudulmamalıdır ki, insanlar yuxarıdakı nümunələrdə qısa şəkildə toxunduğumuz kimi, Allah rizasını qazanacaqları həyat tərzindən başqa bir həyat tərzi mənimsəmişdirlərsə, çoxluğa tabe olma məntiqinin özlərinə gətirəcəyi qazanc yoxdur. Necə ki, zehni cəhətdən çökmüş və əxlaqi cəhətdən pozulmuş fərdlərdən ibarət bir cəmiyyət, dünyada böyük qarışıqlığın içinə sürükləndirilər. Mənfəət vuruşmasına əsaslanan çəkişmələr, düşmənçiliklər, ehtiras, nifrət, qısqanclıq kimi, uzaq dayanılmalı duyğu və düşüncələr insanlar arasında böyük sürətlə yayılar. Eləcə də, dünya yaşanması çətin olan, narahatlığın və qarışıqlığın hakim olduğu bir yerə çevrilər. Bu, Allahın Özünə şirk qoşanlara dünyada verdiyi qarşılığıdır. Axirətdə bu insanları daha faciəvi aqibət gözləyir. Quranda bu aqibət belə bildirilir:

**Onlar yer üzündə Allahdan yaxa qurtara bilməyəcəklər. Onların Allahdan başqa himayədarları da yoxdur. Onların əzabı qat-qat artırılar. Çünki onlar haqqı eşidə bilmirdilər və görmürdülər. Onlar özlərini ziyana uğradarlar. Uydurduqları bütlər isə onlardan qeybə çəkilib gedər. Şübhə yoxdur ki, axirətdə ən çox ziyana uğrayanlar da onlardır. (Hud surəsi, 20-22)**

## "Həqiqətləri heç kəs deyil, təkcə sənmi görürsən" məntiqi

Cəmiyyətin bir hissəsini Allaha inanmaqdan uzaqlaşdıran və insanları ilah halına gətirən (Allahı tənzih edirik) bu batil sistemin bəhanə olaraq ortaya atdığı digər bir səhvliyi də, həqiqətləri görməzlikdən gəlmək və ya tamamilə rədd etməkdir. Cahil cəmiyyətlərin çoxluğa tabe olma məntiqləri, özüylə birlikdə iman edənlərin sözlərinə dinləməmək nəticəsini də gətirib çıxardır. Müsəlmanlar, özlərini Allahın əmrlərinə tabe olmağa və yalnız Allaha iman etməyə dəvət etdikləri vaxt, bu insanlar atalarının gətirdiyi batil qanunlara və azğın inanca iman edəcəklərini ifadə edən rəftarlar göstərməyə başlayarlar. Cəmiyyətin özlərinə öyrətdiyi batil qanunlardan və yaşayış tərzindən güzəştə getməyəcəklərini göstərərlər. Allah bu yanlış zehniyyəti Quranda belə təsvir edir:

**Onlara: "Allahın nazil etdiyinə tabe olun!" deyildikdə, onlar: "Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq!" deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə? (Bəqərə surəsi, 170)**

Cahil dində, atalarından öyrəndikləriylə həyatlarını davam etdirmək məsələsində qətiyyət göstərənlər, öz aralarında rəğbətlə qarşılanılan, həyatlarına nüfuz etmiş bu batil dinin hökmlərinə müdaxilə etmək istəyənlərə kəskin şəkildə qarşı çıxarlar. Özlərinə doğruları gətirən iman sahiblərinin, rizalarını qazanmağa çalışdıqları insanlarla aralarındakı münasibətləri korlamalarını və bu batil dinin qanunlarına xələl gətirmələrini istəməzlər. Səmimi iman sahiblərinin səbirlə söylədikləri həqiqətləri; "bunları təkcə sən mi anladın, bu qədər insan yanlış mı düşünür, bu vaxtadək bunu heç kim görə bilmədi də, indi sənmi görürsən..." kimi cahil etirazlarla qüvvədən salmaq üçün, səy göstərərlər. Çünki onların batil inanclarına görə; "doğruları təkcə sən mi gördün" şəklində qarşı çıxmaq qarşı tərəfi sındırar, insanın özünə olan etibarını sarsıda bilər (lakin bu üsul təkcə onların batil inanc sistemlərində qüvvədə ola bilər, çünki həqiqi müsəlmanlar belə sadə etirazlardan qətiyyən təsirlənmirlər). Beləliklə də, doğrular özlərindən gizlənmiş olar. Əks təqdirdə "insanlar haqqımda nə düşünər, nə edim ki, onları razı salım, özümü onlara necə bəyəndirim, aralarına necə girim..." kimi düşüncələrə qapıldıqlarında, həqiqətləri bilən bu insanlar onlara Allahı və heç kəsin Allahın özləri üçün müəyyənləşdirdiyi taeldən savayı bir şey etməyə gücləri olmadığını xatırladacaq. Bu müdaxilə onların batil dinlərinin yox olması, qanunlarının qüvvədən düşməsi deməkdir.

Lakin "insanlara tapınma dini"nin mənsubları nə qədər səy göstərsələr də, Allah doğruların gizli qalmasına icazə verməz, batili, mütləq haqq qarşısında məğlub edər, təsirsiz hala gətirər. Haqqı müdafiə edən insanlar nə qədər az görünsələr də, Allah onlara fikri qələbə verər. Üzərlərindəki hər cür təzyiqə qarşı onlara qətiyyətlilik və dözüm verər.

Quranda peyğəmbərlərin, yaşadıqları cəmiyyətlərin azğın və həddi aşmış həyat tərzlərinə son qoymaq üçün, etdikləri xəbərdarlıqlardan bəhs edilir. Bu insanlar peyğəmbərlərini tək qoyaraq, onların güclərini və şövqlərini yox etməyə çalışmış və onları xor baxmışdırlar. Lakin, əlbəttə ki, bu cür etirazlar saleh müsəlmanlara heç bir dövrdə mənfi təsir göstərməmişdir. Məsələn, Saleh peyğəmbər batil dinlərini tərk etmələri üçün təbliğ etdiyi qövmündən belə bir reaksiya almışdır:

**Onlar dedilər: "Ey Saleh! Sən bundan əvvəl içərimizdə ümid edilən bir kimsə idin. Doğrudanmı atalarımızın ibadət etdiyinə ibadət etməyi bizə qadağan edirsən?**

**Doğrusu, biz sənin bizləri dəvət etdiyin əqidə barəsində şübhə doğuran şəkk içindəyik". (Hud surəsi, 62)**

Hz. Saleh (ə.s)-ın qövmünə verdiyi qətiyyətli cavabı isə, Quranda belə bildirir:

**O dedi: "Ey qövmüm! Bir deyin görək, əgər mən Rəbbimdən açıq-aydın bir dəlilə istinad edirəmsə, O da Öz tərəfindən mənə bir mərhəmət (peyğəmbərlik) bəxş edibsə, onda necə olsun? Əgər Allaha asi olsam, məni Ondan kim qoruya bilər? Siz mənə ziyandan başqa bir şey artırmayacaqsınız (Hud surəsi, 63)**

Unudulmamalıdır ki, insanlar bəzən çox açıq həqiqətləri görməyə bilər. Bu insanlar, yaşadıqları cəmiyyətin qanunları çərçivəsində yaşamağa şərtləndikləri və bunları uzun müddətdir ki, tamamilə eyni qaydada tətbiq etdikləri üçün, (hz. Saleh (ə.s)-ın qövmü kimi) davam edən batil nizamlarını pozmağı gözə almaya bilərlər. Bundan ötrü də, yaşadıqları çirkin əxlaqın özlərinə çox böyük zərərlər gətirdiyini görmələrinə baxmayaraq, haqqı seçməkdənsə batilə uyaraq həyatlarını davam etdirməyi seçərlər. Dünyada rahatlıq və dinclik içində yaşanıla biləcək bir model ola biləcəyinə ehtimal vermədikləri üçün, pisin yaxşısı məntiqiylə cahil dindən kənara çıxmağı gözə ala bilməzlər.

Halbuki insanların həqiqi xoşbəxtlik və nicat içində yaşamaları üçün, çox asan bir yol var. Bu yola girə bilmək üçün, hələ vaxt olduğu halda, özlərini xəbərdar edən, yaşadıqları sistemin yanlışlığını dəlillərlə sübut edən möminlərə qulaq asmalıdırlar. O günə qədər doğrunun heç kəs tərəfindən ortaya çıxarıla bilmədiyinə ehtimal verib, vicdanlarının səsini dinləməli və diqqətlərini, nəsə yaratmaq və ya məhv etmək gücü olmayan insanlardan çəkərək, yalnız Allaha yönəltməlidirlər. Bu, insanın ağıl və anlama qabiliyyətinin açılmasını, həyatın əsil məqsədini qavraya bilməsini və bunun nəticəsində də insanlar əvəzinə Allahın rizasını qazanmağı qarşısına məqsəd qoymağı təmin edəcək.

Allah Quranda yalnız Özündən qorxub çəkinənlər və Özünə itaət edənlərin xoşbəxtlik və nicat tapacağını belə müjdələmişdir.

**Allaha və Onun Elçisinə itaət edənlər, Allahdan qorxub çəkinənlər məhz xoşbəxtlik və nicat tapanlar onlardır. (Nur surəsi, 52)**

## "Allah qorxusu özüylə birlikdə iman gözəlliyini də gətirər"

**Adnan Oktar:** *Allahdan qorxmaq demək, Ondan dəli aşiqin qorxusuyla qorxmaq, yəni Allahı incitməkdən çəkinmək, Allahın rizasını qazana bilməməkdən qorxmaqdır. Aşiq sevdiyini incitməkdən qorxar, onun sevgisinin yox olmasından qorxar, budur Allah qorxusu.*

*Allahdan qorxan insan Allahın əmrlərinə çox diqqətlə yanaşar, Onu çox sevər, hörmət bəsləyər. Məsələn, eqoist olmaz, şəfqətli olar, qoruyucu olar, nəfsinə düşkün olmaz.*

*Öz mənfəətlərinin ardınca qaçmaz, həmişə bağışlayıcı olar, Allahdan qorxub bağışlayıcı olar. Məsələn, əfv etmək, sevgini davam etdirən bir qüvvədir. Mərhəmət, sevgini*

*davam etdirən bir qüvvədir. Allah rizası üçün, sevdiyini qoruyarsan, onun yeyib-içməyinə diqqət yetirərsən, sağlamlığına, idmanına diqqət yetirərsən.*

*Məhz bu güclü Allah eşqinin təcəllisidir. Allahdan qorxmayan insan eqoist olar, yalnız özünü düşünər, bağışlamaz, mənfəətlərinə zidd düşdükdə sərt davrana bilər. Məsələn, şübhəçi olar, fədakar və comərd olmaz, lazım gəldikdə Allah üçün, canını ortaya qoya bilməz. Bir çox mənfi davrnaışlara sahib olmuş olar. Lakin Allahdan qorxduqda bütün gözəlliklərə sahib olar, yəni sevgini təmin edən, gözəlliyi təmin edən hər cür gözəllik Allah qorxusuyla mümkün olar. (Adnan Oktarın 2 mart 2009 Ekin TV müsahibəsindən)*

# İnsanlara tapınma dininin, "desinlər" və "deməsinlər" qanunları

İnsanlara tapınma dininin əsas qanunları, "desinlər" və "deməsinlər" məntiqləri üzərində qurulmuşdur. Bu qanunların təməlində isə, insanların rizasını axtarma, özünü qarşı tərəfin özündən istədiyi bir həyat tərzi və şəxsiyyət yaşamağa məcbur hiss etmə kimi yanlış düşüncə tərzi var. Digər bir sözlə, bu yanlış məntiqlə hərəkət edən bir insan artıq öz azad vicdanından və ağlından istifadə edə bilməz. Çünki insanların tərifi, diqqəti, sevgisi, yaxınlıq və dostluğu üçün, həmişə xarakter dəyişdirmək məcburiyyətində qalar. "İnsanlar mənim barəmdə belə desin", "heç kəs mənim barəmdə belə düşünməsin" kimi düşüncələr ağlını işlətməsinə mane olar və ətrafındakı bütün insanları ayrı-ayrılıqda razı salmağa çalışmaq kimi, nail ola bilməyəcəyi bir şey naminə səy göstərməsinə səbəb olar. Vicdanının səsinə qulaq asdıqda çox doğru olduğunu gördüyü, hətta doğruluğundan az da olsa şübhələnmədiyi mövzularda belə, doğru olan əvəzinə cəmiyyətin tələbinə görə yaşamaq məcburiyyətində qalar. Halbuki Quranda Allahın rizasını qazanmaq məqsədi güdməyən bir həyat tərzinin, bu həyat tərzini yaşayan insanı Cəhənnəmə apara biləcəyi belə bildirilir:

**Binasını Allah qorxusu və Onun rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa binasını dağılmaqda olan uçurumun lap kənarında quran və onunla birlikdə Cəhənnəm oduna yuvarlanan kəs? Allah zalım qövmü doğru yola yönəltməz. (Tövbə surəsi, 109)**

Ayədə bildirilən açıq-aydın həqiqətə baxmayaraq, bu gün din əxlaqından uzaq cəmiyyətlərdə Allahın rizasını qazanmağın əhəmiyyəti demək olar ki, tamamilə unudulmuşdur. İnsanların böyük hissəsi özlərini Allah əvəzinə insanlar qarşısında məsul və asılı hala gətiriblər. Bunun təməlində yatan səbəblərdən biri isə, insanların bitməyən öyünmə və göstəriş arzusudur.

## Bəzi insanların öyünmə və göstəriş etmə hərisliyi

İnsan nəfsi təriflənmək və digər insanlara göstəriş etmək istəyər. Allahın yaratdığı bir qul olduqlarını və Onun verdikləri sayəsində yaşadıqlarını dərk etməyən insanlar, başqalarından gələcək tərif dolu sözlər, əlindəkilərlə qarşılarındakı insanlara göstəriş edib nəfsani üstünlük əldə etməyə çox əhəmiyyət verərlər. Cahilcəsinə bunlara öz gücləriylə sahib olduqlarına və istədikləri qədər əllərində tuta biləcəklərinə inanırlar (Allahı tənzih edirik). Quranda bu yanlış ruh halıyla əlaqədar bağ sahibi bir insan nümunə verilir:

**Onun başqa sərvəti də var idi. O öz mömin yoldaşı ilə söhbət edərkən ona: “Mən sərvətcə səndən daha zəngin və adamlarıma görə səndən daha qüvvətliyəm!” dedi. O özünə zülm edərək bağına daxil olub dedi: “Bunun nə vaxtsa yox ola biləcəyini düşünmürəm. O Saatın gələcəyini də zənn etmirəm. Rəbbimin yanına qaytarılmalı olsam, sözsüz ki, bundan daha firavan bir həyat qismətim olacaq!” (Kəhf surəsi, 34-36)**

Ayələrdə də bildirildiyi kimi, bu insan əlindəki bağın əsil sahibinin özü olduğunu düşünərək özünə görə göstəriş edir. Əlindəki torpaqların sonsuzadək öz əlində qalacağını zənn edir. Halbuki buna Allah hökm verəcək. Allah o bağın və sahibinin taleyində nə müəyyənləşdiribsə o olacaq. Allahdan başqa heç bir varlığın, yaşanacaqları dəyişdirməsi qeyri-mümkündür. Lakin imansız bağ sahibi bu həqiqətdən xəbərsiz olduğundan, cahil təlqinlərlə düşünür və sahib olduqlarıyla öyünür. Tale həqiqətini heç düşünməyərək istər bağı, istərsə də öz gələcəyi barəsində təxminlər edir. Bunları edərkən də, məqsədi, güman ki, insanları zənginliyi vasitəsilə cəzb etmək və onların təriflərini toplamaq ola bilər. Bütün bunları Allahın rizasını qazanmaqdan daha üstün tutduğu üçün, Allah bu insanın bağını böyük fəlakətlə darmadağın etmiş və geridə öyünəcəyi, göstəriş edəcəyi bir mülk qoymamışdı. Bağ sahibi başına gələn hadisələr nəticəsində qəflət yuxusundan oyanmış və günahının Allahdan başqa ilahlar qəbul etmək olduğunu anlamışdır. Quranda bu vəziyyət belə bildirilir:

**Beləcə, onun bağının məhsulu bir anda məhv edildi. O, bağını belə görüb ora qoyduğu xərcə görə peşmançılıq çəkməyə və əllərini bir-birinə vurmağa başladı. Bağın talvarları belə darmadağın olub yerə yıxılmışdı. O dedi: "Kaş Rəbbimə heç kəsi şərik qoşmayaydım!" (Kəhf surəsi, 42)**

Quranda bildirilən bu nümunədən də aydın olduğu kimi tərif və nümayişə əsaslanan bir həyat tərzi, imansız biri üçün nəfsani bir istəkdir. Bu insanlar dünyanın yaranma məqsədinin, insanların bir-birləri arasında öyünmələri, göstəriş etmələri, mal-dövlət cəhətdən zənginləşmə kimi dəyərlər olduğunu zənn etdiklərindən bunları əldə etdiklərində qazanc əldə edəcəklərini zənn edərlər. Allah başqa ayələrində bu yanlış məntiqə sahib insanları belə xəbər verir:

**Çoxluğa hərisliyiniz başınızı o qədər qatdı ki, gömülməklə qəbirləri ziyarət etdiniz. (Təkasur surəsi, 1-2)**

Halbuki həqiqətlər çoxluq təşkil etməyi üstünlük hesab edən bu insanların zənn etdikləri kimi deyil. Allah dünyanı insanların bir-birlərinə qarşı nəfsani mövzularda üstünlük qazanmaları üçün deyil, Özünə ibadət etmək məsələsində hansının yaxşı işlər görəcəyini sınamaq üçün yaratmışdır. Mülk surəsində belə buyurulur:

**O, əməl baxımından hansınızın daha yaxşı olacağını sınamaq üçün ölümü və həyatı yaratdı... (Mülk surəsi, 2)**

Bundan ötrü də, əsil zövq alınacaq, xoşbəxt olub seviniləcək hadisələr, Allahın rəğbətini qazanmaq məqsədiylə görülən işlərdir. Çünki insanı əsasən imanın gətirdiyi sevinc qane edə bilər. Başqa şey insanı, çox qısa müddət və axirətdə zərər gətirmək surətiylə müvəqqəti qane edə bilər.

Lakin bəzi insanlar, haqq din əxlaqını yaşamaq əvəzinə, Allahdan başqa varlıqları ilahlaşdıran (Allahı tənzih edirik) insanlara tapınma dini içində yaşamağı seçərlər. Bundan ötrü də, gördükləri bütün işlər bu yanlış təməllərə əsaslanar. İnsanlar artıq həyatın istənilən anında başqa insanlara göstəriş etmək, özlərinə verilənlərlə onları qısqandırmaq kimi rəftarlar

göstərirlər. Halbuki göstəriş etmək insana maddi və mənəvi cəhətdən böyük sıxıntı verər. Bədənini və zehnini yorar. Bununla yanaşı, insanı fitrətindən azdıraraq, sərt, qatı, həris, kinli, səmimiyyətsiz və saxtakar ruh halına yönəldər. Hətta bu elə hal alar ki, insan səmimiyyətlə yerinə yetirməli olduğu ibadətlərini belə, başqaları onun barəsində etiqadlı, inanclı müsəlmandır desinlər deyə etməyə başlaya bilər. Allah Quranda bu batil dini yaşayan insanların namazlarını başqa insanlara göstəriş üçün, qıldıqlarını belə bildirmişdir:

**Vay halına namaz qılanların o şəxslərin ki, onlar namazlarında yanılırlar. Onlar göstəriş edirlər. (Maun surəsi, 4-6)**

Bu insanlar eynilə 5 vaxt namaz kimi, Quranda bildirilən və "ehtiyac sahibi olanlara öz ehtiyaclarından artıq qalanı vermə", yəni infaq ibadətindən də göstəriş, öyünmə kimi Allah rizası daşımayan məqsədlər üçün istifadə edərlər. Quranda malını göstəriş üçün infaq edənlərin vəziyyəti belə təsvir edilir:

**Ey iman gətirənlər! Sədəqələrinizi, özünü camaata göstərmək məqsədilə xərcləyən, Allaha və Axirət gününə inanmayan şəxs kimi minnət qoymaqla və əziyyət verməklə puç etməyin. Bunun məsəli üzərində torpaq olan hamar qayanın məsəlinə bənzəyir ki, şiddətli yağış yağıb onu çılpaq hala salmışdır. Onlar qazandıqlarından heç bir şeyə nail olmazlar. Allah kafir xalqı doğru yola yönəltməz. (Bəqərə surəsi, 264)**

Ayələrdə bildirildiyi kimi, insan Allaha inandığı halda digər insanların rizasını qazanmağa çalışması, həmin insanın səmimiyyətinə xələl gətirər. İnsanı Allaha qarşı səmimiyyətsiz bir insane çevirər. İnsanların özü üçün nə deyəcəyinə əhəmiyyət verərək, inancını göstəriş, öyünmə kimi nəfsani duyğularla kirlətməsi onun qəlbini qatılaşdırar. Dünyadakı maraqları, mənafeləri üçün, yaşayan bir insana çevrilməsinə səbəb olar. İnsanı Allah qorxusunu itirmiş, Onun verəcəyi əzabdan xəbərsiz birinə çevirər. Bundan sonra da Allah rizası üçün göstərməli olduğu bir çox gözəl əxlaq xüsusiyyətini, bir ticarət mövzusu kimi, özünə dünyəvi mənfəətlər təmin etməsi və qarşısına bəzi fürsətlər çıxartması üçün istifadə etməyə başlayar. İnsanlara tapınma dinində bütün insanlar bu qanunlar əsasında yaşayar. Sonrakı sətirlərdə bu çürük məntiqlərdən gündəlik həyatdan nümunələr gətirilərək danışılacaq.

## "Desinlər" qanununun yanlışlığı

Cahil cəmiyyətdə insanlar özlərini həmişə; "insanların deyəcəkləri, dedikləri, deməli olduqları" məntiqlərindən asılı halda yaşamaq məcburiyyətində hiss edərlər. Bunun nəticəsində isə, Allahı düşünməkdən və gözəl əxlaqdan uzaqlaşarlar. Düşüncələri, din əxlaqının və dinin gətirəcəyi rahatlıqdan uzaqdır. Böyük qarışıqlıq və çəkişmələrin hökm sürdüyü doğruların və yanlışların bir-birinə qarışdığı bir mühitə düşərlər.

Bu yanlış məntiqə görə hakimiyyət və qanun qoyma səlahiyyəti yalnız insanların əlindədir. Allahın əmr və qadağaları insanların həyatından tək-tək çıxardılmışdır. Bundan ötrü də, haqq din əxlaqının əsaslarını həyatına daxil edən, Allah rizasından başqa heç bir qüvvənin qənaətinə əhəmiyyət verməyən bir insan, dərhal diqqət çəkər və cahil insanların mənfi

rəftarlarıyla qarşılaşar. Lakin, əlbəttə ki, səmimi bir insan bu mənfi rəftarlara qətiyyən əhəmiyyət verməz, çünki tək məqsədi dünyada Allahın rizasını qazanmaqdır.

Lakin insanlara tapınma dininin "insanlar nə deyər, nə danışar, nə düşünər" kimi meyarları, imanı zəif bəzi insanları da öz təsiri altına ala bilər. Bu isə, Quran əxlaqını tam yaşaya bilməmələrinə, anlayış və rəftar etibarilə əsil müsəlmanlardan çox, bu batil dinin mənsublarına bənzəmələrinə səbəb olar. Bu insanlar "həyatın həqiqətləri" yalanının güclü təsiri altında, həyatları boyu dini tam mənimsəmədən azğın anlayış içində yaşayarlar. Quranda imana qarşı qəlblərində xəstəlik olan bu insanların vəziyyəti belə bildirilir:

**Onlar tərəddüd edir, nə bunlara, nə də onlara (nə möminlərə, nə də kafirlərə) tərəf olurlar. Allahın azdırdığı şəxs üçün heç bir yol tapa bilməzsən. (Nisa surəsi, 143)**

Yoluxucu bir xəstəlik kimi insanları təsiri altına alan bu batil din, zəif iradə və xarakterə sahib bu insanları, Allahı zikr etməkdən, Onun rizasını güdməkdən uzaqlaşmış insan kütlələrinə çevirər. Lakin sahib olduqları bu yanlış anlayış, çoxluğun təsiriylə özlərinə o qədər məqbul görünür ki, bundan xilas olmaq üçün, səy göstərməyə belə ehtiyac duymazlar.

Bundan ötrü də, istər öz mənsublarını, istərsə də zəif imana sahib bəzi insanları təsiri altına alan bu batil dinin təməl məntiqlərini nümunələrlə izah etməkdə fayda var. Beləliklə də, insanlar içində olduqları yanlış ruh halını analiz edə biləcək və səmimi olanlar bu batil dindən Allahın icazəsiylə xilas ola biləcəklər. Sonrakı səhifələrdə, insanlara tapınma dinindəki "desinlər" məntiqinin meydana gətirdiyi yanlış qəliblərdən bəzilərini nümunələrlə göstərəcəyik.

## "Yaxşı xasiyyətlidir" desinlər məntiqi

Quranda gözəl əxlaqlı olmağın əhəmiyyəti bir çox ayədə vurğulanır. Peyğəmbərlərin gözəl və mülayim xasiyyətli olduqlarından, pisliyə yaxşılıqla cavab verən, səbirli, dözümlü, Allah qorxuları böyük insanlar olduqlarından bəhs edilir. Məsələn, hz. İbrahim, sidq-ürəkdən Allaha üz tutmuş, gözəl əxlaqıyla önə çıxmış bir peyğəmbər olaraq belə tanıdılır:

**Həqiqətən, İbrahim həlim xasiyyətli, həssas və sidq-ürəkdən Allaha üz tutmuş bir şəxs idi. (Hud surəsi, 75)**

Bütün peyğəmbərlərin və saleh möminlərin əxlaqlarının təməlini, Allaha olan dərin təslimiyyət meydana gətirir. Möminlər, yalnız Allaha ibadət edən, Onun rizasından başqa heç bir varlığın rizasına dəyər verməyən insanlardır. Əsil əhəmiyyətli şey bütün kainatın yaradıcısı olan Allahın bəyəndiyi gözəl əxlaqa sahib olmaqdır. Bundan ötrü də, gözəl xasiyyətli olmalarının təməlində də Allahın rəğbətini qazanmaq məqsədi yatır. Halbuki cahil insan üçün, sistem bunun tam əksinə işləyir. İnsanlara tapınma dinini yaşayan bir insan, qanunlarını əzbər bildiyi bu batil dinin tələblərini yerinə yetirərək, öz deyimləri ilə; "insanların nəbzinə görə şərbət verərək" yaşamağın doğru olduğunu zənn edər. Yaxşı xasiyyətli bir xarakter göstərsə belə, bunun təməlində, diqqətlərini cəlb etmək istədiyi insanların rizası, əldə etmək istədiyi maddi dəyərlər kimi yenə öz xüsusi maraqları var.

Bu məqsədlərinə nail olmaq və istədiyi mənfəətləri əldə etmək üçün də, əlindən gələn ən böyük səyi göstərər. Demək olar ki, heç bir səhv etməyəcək qədər gözəl xasiyyətli olar. Məsələn, olduğu mühit tələb edirsə, kasıblara kömək edər, mərhəmət nümayiş etdirər, dürüstlüyün bəşəroğlu üçün nə qədər əhəmiyyətli fəzilət olduğunu ətrafına izah edər. Təvazökar şəxsiyyət nümayiş etdirər. Pisliyin insanlara necə böyük zərərlər gətirdiyini vurğulayan danışıqlar edər. Olduqca şən, sevgi dolu və səbirli görünər. İnsanlar da bu görünüş qarşısında ona güvənər, sevib özlərinə dost tutarlar. Nə qədər yaxşı xasiyyətli insan olduğunu ətrafındakı digər insanlara çatdırar. Nə cür yardımlar göstərdiyindən, kasıb bir uşaq gördükdə nə qədər mərhəmətli davrandığından, yoldakı yaşlı insana necə hörmət göstərdiyinə qədər etdiklərini tək-tək çatdırar. Yolda tapdığı pulqabını polis şöbəsinə təslim etdiyini, ayağı ağrımasına baxmayaraq, avtobusdakı yerini hamilə bir qadına verdiyini, gec vaxtadək işdə qalıb çalışmış olmasına baxmayaraq, ertəsi gün tam vaxtında işinə gəldiyini və yorğunluğunu qəti hiss etdirmədiyini dildən-dilə çatdırar. O insan da sırf insanlar özü barədə; "gözəl xasiyyətlidir, çalışqandır, mərhəmətlidir, dürüstdür" desinlər deyə bunları böyük fədakarlıqla edər.

Başqa biri isə, bayram günlərində qocalar evinə gedərək oradakı insanlara kiçik hədiyyələr verər. Kimsəsiz uşaqlar üçün, inşa edilən körpələr evinə müxtəlif əşyalar hədiyyə edər. Sonra bu etdiklərinə başqa insanların şahid olması üçün, yaxın ətrafında münasib şəkildə bu etdiklərindən danışar. Sanki özün reklam edər. Yaxud bir xəstəxananın müəyyən hissəsinin yenilənməsi üçün, yüksək miqdarda pul bağışlayar.

Əlbəttə ki, buraya qədər verdiyimiz nümunələr həqiqətən gözəl davranışlardır. Lakin unudulmamalıdır ki, bütün bunlar ancaq Allah rizası üçün edildiyi təqdirdə, məna daşıya bilər. Əgər insanlar tərəfindən təriflənmək, alqışlanmaq və "yaxşı insandır, comərddir, vicdanlıdır" deməsi kimi niyyətlərlə edilərsə, bu təqdirdə qısa dünyəvi mənfəətdən başqa insana təmin edəcəyi qazanc da olmaz. Çünki şərtlər çətinləşib, insan bu xasiyyətlərindən ötrü zərər görməyə və ya qarşılıq görmədiyini anlamağa başlayanda bu yaxşı davranışlarını dərhal tərk edə bilər. Lakin Allah rizası üçün edilən hərəkətlər əbədi olar, heç bir şərtə və mühitə bağlı olmadan davam etdirilər.

Üstəlik, insanın səhvindən imtina edib niyyətini düzəltməsi olduqca asandır. İnsanlara tapınma dininə itaət etməyin, özünə ziyandan başqa bir şey gətirməyəcəyini anlayan insanın tək etməli olduğu şey tövbə edib, Allahın rizasını qazanmağa niyyət etməsidir. Bu, bir anlıq bir qərardır və o andan sonra insan niyyətini pozmadıqca etdiyi gözəl əməllər də hədər getməz və özü üçün mükafat olaraq Allah Qatında yazılar. Əhəmiyyətli olan insanın Allahdan qorxması və Onun istəklərini yerinə yetirməyə niyyət etməsidir.

İnsanın Allahın qüdrətini tanıma və Ondan lazımınca qorxma məsələsində qətiyyətli olması da çox əhəmiyyətlidir. Çünki Allah qorxusu olmayan bir insanın nə edəcəyi, nə kimi qərarlar verəcəyi məlum deyil. Bu insan, yaxşılıq etdiyi halda, mənfəətinə uyğun gəlsə bir anda pis xasiyyətli bir insana çevrilə bilər. Bu davranışından ötrü Allahdan pis bir qarşılıq alacağını ağlına gətirməz. Bir həftə tam fərqli bir xarakter göstərdiyi halda, ikinci həftə o xarakterindən əsər-əlamət qalmaya bilər. İnsanlara tapınma dininin qanunlarının tələbindən ötrü, pisliyə pisliklə, ədalətsizliyə ədalətsizliklə cavab verməyə başlaya bilər. İnandığı batil dinin mərhəmətsiz qanunlarını özü də tətbiq etməyə başlayar. Çünki daha əvvəl də söylədiyimiz kimi, bu batil dində guya ilah qəbul edilən və rizası güdülən, yalnız insanlar olduğundan (Allahı tənzih edirik) vicdan mexanizmi də insanlara uyğun şəkildə işləyər. Bundan ötrü də, Allahın insanlardan hansı əxlaq istədiyinin heç bir əhəmiyyəti olmaz. Halbuki müsəlmanlar qarşılarında pislik edən, ədalətsizcə hökm verən insanlara, mərhəmətsiz, zalım, vicdansız kəslərə də, gözəl

əxlaqla cavab verərlər. Heç bir şərtdə Allahın razı olacağı gözlənilən gözəl davranışlardan imtina etməzlər.

Dolayısilə iman edənlərin gözəl əxlaqında heç vaxt fərqliləşmə və ya geriləmə olmaz və onlar həmişə etidallı və insaniyətlidirlər. Çünki onların yaşama məqsədi, Allahın sevdiyi bəndələrdən olmaq təməli üzərinə qurulmuşdur. Allah Quranda bu əxlaqı insanlara belə bildirir:

**O kəslər ki, Rəbbinin Üzünü diləyərək səbir edir, namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir və pisliyi yaxşılıqla dəf edirlər. Axirət yurdu onlar üçündür. (Rad surəsi, 22)**

## "Zəngindir, comərddir, pul xərcləməyi sevir" desinlər məntiqi

İnsanlara tapınma dinində insanların zənginliklərinə çox əhəmiyyət verilir. Bu batil dinə görə zənginlik güc deməkdir. Bu gücü əlində saxlayan da, cəmiyyətdə olduqca mühüm bəzi imtiyazlara sahib olmalıdır. Necə ki, ən zəngin insan ən çox rəğbətlə qarşılanan, ən çox dostu olan, ən qibtə ediləcək insan kimi xarakterizə olunar. Belə bir insan zənginliyin, guya bütün qapıları sonunacan öz üzünə açacağını zənn edər. Bundan ötrü də, cəmiyyətdəki bəzi insanlar bu istiqamətlərini ön plana çıxartmaq üçün ciddi səy göstərərlər. İnsanların özləri barəsində, necə də zəngindir və necə də pul xərcləməyi sevir deyə düşünmələri üçün bir çox cəhdlər edərlər. Əsla çəkinmədən zənginliklərini göstərəcək xərclər çəkərlər. İnsanların bu mövzudakı qənaətlərini olduqca gücləndirmək üçün, zənginliklərini vurğulayacaq geyim, avtomobil, ev kimi hər cür məsrəflərdə comərd və hətta bəzən bədxərc davranarlar. Evlərini, zənginlərin xüsusilə də “yüksək cəmiyyət” adlandırdıqları insanların dəyər verəcəyi ölçülərdə dekorasiya etməyə diqqət göstərərlər.

Bu insanlar həmin il dekorasiyada yaşıl rəngi üstün tutsalar, heç bəyənməsələr belə onlar da yaşıl rəngdən istifadə edər, qırmızı dəbdə olarsa qırmızını seçərlər. Heç bir istiqamətləriylə onlardan geri qalmaq istəməzlər. Bunu sanki bir qürur məsələsinə çevirərlər. "Desinlər, düşünsünlər" məntiqinin təsiri altında, bütün həyatlarını, zənginliklərini vurğulayacaq hərəkətlər edərək keçirərlər. Yay tətillərini həmin ilin ən dəbdəbəli tətil düşərgəsində, qış tətillərini isə, ən dəbdəbəli xizək mərkəzində keçirərlər. Uşaqlarını xaricdə oxudar, paltarlarını müəyyən ölkələrdən gətirdərlər. Yaşadıqları ətraflarında "onların da var" demələri üçün, ən bahalı yaxta alar, özləri minməsələr də, bir limanda bağlayıb insanlara sərgilərlər. Ən çox qısqandırmaq istədikləri insanları bu yaxtalarla gəzdirərlər. Ən bahalı içkiləri, ən bahalı yeməkləri təqdim edərək heç bir mövzuda onlardan geridə qalmadıqlarını yaxşı şəkildə vurğulayarlar.

Əlbəttə ki, insanın imkanı olduğu və zövq aldığı təqdirdə, yuxarıda sadaladığımız hərəkətləri etməsində problem olmaz, əksinə bunları həqiqi mənada istədiyi üçün edirsə, bunlar nemət və gözəllikdir. Lakin burada bəzi insanların sahib olduqları yanlış məntiqdən söhbət gedir. Belə insanların nail olmaq istədikləri tək məqsəd var: O da özləri barədə; "zəngindir, comərddir, pul xərcləməyi sevir" deyilməsidir. Bunları eşitmək, bu insanların nəfsani istəklərini təmin edər, əhvallarını yüksəldər və motivasiyalarını gücləndirər. Bunun əksi olsa, alt-üst olar, bütün əhval-ruhiyyələri korlanar, pessimizmə qapılar və heç nədən zövq ala bilməzlər. Halbuki eyni insanlardan, bu səyi din əxlaqının insanlara çatdırılması, Allaha iman edənlərin sayının artması üçün, göstərmələri istənilsə, böyük ehtimalla bu təklifi dərhal rədd edərlər. Çünki cahil bir məntiqlə hərəkət etdikləri üçün, Allahın rizasını qazanmaq, insanların rizasını qazanmaq

qədər özlərinə cəlbedici gəlməz. Bunda dünyəvi mənfəət təmin edəcəkləri, yaşadıqları cəmiyyətin diqqətini çəkəcəkləri, onların tərifini qazanacaqları bir istiqamət tapa bilməzlər.

Halbuki insan axirət günü bütün sahib olduqlarını arxasında qoyacaq və Rəbbimizin hüzuruna tək-tənha çıxacaq. Rizalarına olduqca əhəmiyyət verdiyi, sanki ilah hesab etdiyi, gözlərinə girmək üçün əlindən gələn bütün səyi göstərdiyi insanları isə, arxasında qoyacaq. Bu insanlardan heç birinin, ona azacıq da olsa köməyi toxunmayacaq, özünü Allahdan qoruya bilməyəcəklər. Allah bu batil dinin mənsubu olan insanlara axirətdə qarşılaşacaqları vəziyyəti belə çatdırır:

**Hüzurumuza ilk dəfə sizi xəlq etdiyimiz kimi tək-tənha, həm də sizə verdiyimiz nemətləri arxanızda qoyub gəldiniz. Öz aranızda Allaha şərik saydığınız şəfaətçilərinizi də yanınızda görmürük. Artıq aranızda əlaqə qırılmış, iddia etdiyiniz məbudlar isə sizdən uzaqlaşmışdır. (Ənam surəsi, 94)**

## "Onun dostudur" desinlər məntiqi

Bu batil dini yaşayan insanlar ümumiyyətlə gözəl, yaraşıqlı, zəngin və ya tanınmış olduğu üçün, bir insanın dostu olarlar. Onlar üçün bu insanın əxlaqının heç bir əhəmiyyəti olmaz. Məsələn, çox gözəl bir qızın dostu kimi tanınmaq üçün, onun bütün nazlarına göz yumar. Ətrafında göstəriş etmək, özü barədə, o qızın ən yaxın dostudur dedirtmək üçün səy göstərər. Onunla birlikdə görülmək üçün səy göstərər.

Eyni vəziyyət, zəngin biriylə dostluq edən bu cür düşüncəyə sahib insan üçün də keçərlidir. Onunla danışmaq və ya eyni masa başında əyləşmək, birlikdə gülmək, ona öz adıyla xitab edəcək qədər yaxın olması, özüylə zarafat etməsi, telefonla zəng etməsi, evinə gəlməsi və ya onun avtomobilinə minərkən insanlar tərəfindən görünməsi qürurunu oxşayar. İnsanların onun barəsində; "o zəngin insanın dostudur, necə də gözəl, necə də şanslıdır" dediklərini düşündükcə bunun dünyadakı ən mühüm uğurlardan biri olduğunu zənn edər. Həmin insanla dost olduğu üçün, özünü çox əhəmiyyətli biri kimi hiss edər. Bundan ötrü də, onun bütün nazlarına, bəzi hallarda zalımlığına və eqoistliyinə sırf insanlar "onun dotudur" deməlari üçün, dözməyi gözə alar. Halbuki insan Allah rizası üçün dostluq qurmalıdır. Çünki insan axtardığı güc və qüruru, ancaq Allaha qulluq edərək qazana bilər. Quranda insanların axtardığı bütün güc və qürurun Özünə məxsus olduğunu Allah belə bildirir:

**Mömınləri qoyub kafirləri özlərinə dost tutanlar qüvvəti və şərəfi onlardamı axtarırlar? Halbuki qüvvət və şərəf tamamilə Allaha məxsusdur. (Nisa surəsi, 139)**

Yuxarıda bəhs etdiyimiz məqsədlər güdülərək qurulan dünyəvi dostluqlarda isə, insan ancaq ziyana uğrayar və alçalmış olar. İnsanların diqqətini çəkmək, arxasından qibtəylə danışmalarını təmin etmək üçün, qurduğu bu dostluqlar heç bir gözləntisinə həqiqi mənada cavab verə bilməz. Qarşısındakı insan Quran əxlaqını yaşamadığı müddətcə ondan həqiqi dostluq, yaxınlıq, vəfa, sədaqət görə bilməz. Dünyada bəzi mənfəətlər əldə etmiş kimi görünsə də, Quran əxlaqından uzaq bir dost, insanın axirətdə böyük ziyana uğramasına səbəb olar. Allah bu həqiqəti Quranda belə bildirir:

**Şübhəsiz ki, onları haqq yoldan azdıracaq, onlar isə özlərinin haqq yolda olduqlarını güman edəcəklər. Nəhayət, o, hüzurumuza gəldikdə yoldaşına deyər: "Kaş ki, mənimlə sənin aranda məşriqlə məğrib arasındakı uzaqlıq qədər məsafə olaydı. Sən nə pis yoldaş imişsən! (Zuxruf surəsi, 37-38)**

## "Həmişə ən doğrusunu o bilər" desinlər məntiqi

İnsan aciz bir varlıqdır və Allahın özü üçün müəyyənləşdirdiyi taledən kənara çıxması qeyri-mümkündür. Çünki kainatdakı hər şey Allahın müəyyənləşdirdiyi tale əsasında mövcudluğunu davam etdirər. Allah Quranda Qəmər surəsində; **"şübhəsiz ki, Biz hər şeyi tale ilə yaratdıq" (Qəmər surəsi, 49)** ayəsiylə bu həqiqəti bildirir.

İnsan, Allah necə müəyyənləşdiribsə o cür də yaşaya bilər. Məsələn, harada hansı səhvi edəcəyi və ya harada uğur qazanıb harada uğur qazanmayacağı əvvəlcədən məlumdur və vaxtı gəldikdə bunları anbaan yaşayar. Hər nə tədbir görsə də, taledən kənara çıxa bilməz. Əgər Allah taleyində eyni səhvi 500 dəfə edəcəyini müəyyənləşdiribsə, hər nə etsə də, bu sayı nə artıra, nə də azalda bilər. Düz 500 dəfə eyni səhvi təkrarlayar. Belə olduğu halda, insanın hələ də həyatı boyu hər şeyin ən doğrusunu etdiyini, ən doğrusunu bildiyini iddia etməsi ağıllı düşüncə olmaz.

Lakin Allah inancı olmayan və bütün kainatın təsadüflər nəticəsində yaranması yalanına inanmış bir insan, bu açıq-aydın həqiqəti qəbul etməz. Bunun bir nəticəsi olaraq da, insanlara təsir göstərməyin öz əlində olduğunu düşünər. Bu yanlış inanc onu, özünü insanlara isbat etmək üçün, böyük səy göstərməsinə sövq edər. Elə ağıllı şəkildə hərəkət etməlidir ki, hər kəs hər şeyin ən doğrusunu onun bildiyini düşünsün.

Məsələn, bir insan iqtisadiyyat mövzusunda iddialıdırsa, "o iqtisadiyyatla əlaqədar hər şeyi bilir" deyilməsi üçün, bu mövzuda özünə verilən bütün sualları doğru cavablandırmalıdır. Bunun üçün də, gecə-gündüz dayanmadan çalışmalı, oxumalı, gündəmi izləməlidir. Eləcə də, tarix mövzusunda iddialıdırsa, dünyanın siyasi tarixində yer tutan mühüm bir hadisənin tam baş vermə tarixini, kimlər arasında baş verdiyini incəliklərinə qədər bilmək məcburiyyətindədir. Bunun üçün də yenə illərlə çalışmalıdır. Yalnız bunlar da kifayət etmir, məsələn, əgər idman mövzusunda iddialıdırsa, hər gün saatlarla məşq etməli, bütün yarışmalarda birinci yerə çıxmalı, bunun üçün lazım gəlsə ictimai həyatını, dostlarını və ailəsini ikinci plana atmalıdır. Lakin unudulmamalıdır ki, bütün bunlar dünyaya istiqamətli səylərdir. Əlbəttə ki, bu səyi göstərmək, dünyada uğur qazanmaq da gözəldir. Lakin bu uğuru qazanmaq üçün, Allah rizası unudulsa, bunun o insana gətirəcəyi nəticə zərər olacaq. İnsan bu dünyada müəyyən uğur qazansa da, axirətdə Allahın razı olacağı şəkildə yaşamadığı üçün (Allahın diləməsi istisna olmaqla) axirətdə əbədiyyən ziyana uğrayacaq.

Üstəlik, insan Allah qarşısında çox aciz mövqedədir. Həyatı boyu hər hansı sahədə çox müvəffəqiyyətli olan bir insan, bir gün gözləmədiyi bir hadisəylə qarşılaşaraq bu müvəffəqiyyətini itirə bilər. Məsələn, dünya siyasəti mövzusunda çox bilikli, hər an özündən məsləhət alınan bir insan, bir gün yaşayacağı bir problem nəticəsində heç bir şey xatırlamayan, aciz bir insan mövqeyinə gələ bilər. Həmçinin insan unutmamalıdır ki, Allahın sonsuz biliyi qarşısında öz biliyi heç nədir. Çünki insanın sahib olduğu bütün biliyi özünə öyrədən də Allahdır. Unudulmamalıdır ki; **"...hər bilik sahibindən də üstün bir bilən var" (Yusif surəsi, 76)**. Ən üstün və mütləq bilik sahibi olan isə, uca Rəbbimizdir. Buna görə də, hər şeyin ən yaxşısını bilmək, istədiyi sahədə çox müvəffəqiyyətli olmaq iddiasında olan bir insan bu mövzuda

göstərdiyi səylə yanaşı Allahın razı qalacağı, gözəl əxlaqlı bir qul ola bilmək üçün də çalışmalıdır. Ancaq bu yolla həqiqi mənada nicat qazanmaq olar.

## "Bütün mühitlərə uyğunlaşar" desinlər məntiqi

Kitabın əvvəlindən bəri üzərində dayandığımız kimi, cahil cəmiyyətdə yaşayan bir çox insan özünü, içində yaşadığı ictimai mühitin qanunlarına və həyat tərzinə əməl etmək məcburiyyətində hiss edər. Bu mühit özündən nə etməsini istəyirsə, qarşılarında necə bir insan modeli görmək istəyirsə bunu etmək üçün səy göstərər. Çox vaxt da, Quran əxlaqına zidd olan və ya özünə zərər verəcək şeyləri etməkdən çəkinməz. İnsanlara tapınma dininin sanki bir ibadət mahiyyətində olan; "bütün mühitlərə uyğunlaşar" desinlər məntiqinə zidd gəlmək istəməz.

Məsələn, alicənab xarakterli bir gənc, qrup yoldaşları əxlaqsız və nəzakətsizdirsə, özü belə olmadığı halda onların həyatına uyğunlaşmağa çalışar. Qrupundan kənarlaşdırılmamaq, onların deyimiylə desək; "geri düşüncəli", kimi ittihamlarla qarşılaşmamaq üçün, xarakterindən güzəştə getməyə başlayar. Yaxud dostları siqaret çəkdiyindən ötrü, sağlamlığına zərər verəcəyini bilə-bilə o da siqaret çəkməyə başlayar. Hətta bəzən bir insan Allaha iman etdiyi halda, yaşadığı mühit dindar olmadığı üçün onlara özünü çox fərqli tanıdar. Bu mühitdən kənarlaşdırılmamaq üçün, ibadətlərini yerinə yetirməməyə başlayar. Halbuki bütün bunlar insanların rizasını qazanmaq, onları incitməmək üçün edilər. Bunu edən insanlar, dünyada və axirətdə görəcəkləri zərəri mütləq düşünməli və Allaha haqq-hesab verəcəkləri gündən, qorxub çəkinməlidirlər.

İctimai mühitə uyğunlaşma bəhanəsiylə, doğruları tərk etmək, əxlaqsızlıqlara göz yummaq ictimai baxımdan da böyük təhlükədir. Xüsusilə gənclər arasında əxlaqi pozulmanın təməlində bu çürük məntiq yatır. Bu mühitlərdə narkotikdən istifadə edən, alkoqolizm müalicəsi alan və ya fahişəlik edərək dolanan bu insanlardan niyə bu vəziyyətə düşdükləri soruşduqda ortaya atacaqları ən mühüm bəhanələrdən biri, ətraflarına ayaq uydurmaq üçün, belə bir yola yönəlmək məcburiyyətində qaldıqları olacaq.

Halbuki Allah Qatında, insanların başqa insanlar qarşısında belə bir məsuliyyətləri yoxdur. Allah insanları yalnız Öz rizasını güdmək və Quran əxlaqının hökmlərinə əməl etmək mövzusunda məsul tutur. Bundan başqa məqsədlərlə edilən hər cür hərəkət insanları yalnız pis yola çəkər, fitrətinə zidd hərəkətlər etməsinə səbəb olar. Bütün həyatı böyük vicdan əzabı içində, sıxıntı yaşayaraq bitər. Quranda Allah pis dostlar tutanların bu vəziyyətini belə bildirir:

**O, Allahı tərk edərək özünə nə zərər, nə də xeyir verə bilməyənə yalvarır. Dərin azğınlıq da elə budur. Həm də zərəri xeyrindən daha yaxın olana yalvarır. O nə pis köməkçi, nə pis yoldaşdır! (Həcc surəsi, 12-13)**

Buraya qədər insanlara tapınma dininin "desinlər" qanununun bəzi təməl başlıqlarından bəhs etdik. Lakin bəhs edilən batil dinin xüsusiyyətləri, əlbəttə ki, bunlarla məhdudlaşmır. Bu batil dini yaşayan insanın demək olar ki, atdığı hər addım insanların özü üçün yaxşı şeylər düşünmələri, özündən razı olmaları təməli üzərində qurulmuşdur. İnsanların düşüncəsini tamamilə bu məntiq təşkil etdiyindən, həyatlarının hər anı bu səylə davam edər. Lakin eyni

cəmiyyətdə yaşasalar da səmimi iman sahibləri bu cahil dinin mənsublarından fərqlidirlər. Onların eyni işləri gördükləri görünsə də, niyyət etibarilə insanlara deyil, Allaha yönəliblər. Onlar, insanların heç bir gücü olmadığını, bütün gücün Allaha məxsus olduğunu qavrayıblar. Onlar da insanları məmnun edəcək davranışlar göstərə bilərlər, lakin bunu edərkən də qarşılarına Allahın rizasını qazanmağı məqsəd qoymuşdurlar. Allahın əmr etdiyi kimi insanlara qarşı gözəl əxlaq göstərərlər, bu da onlara həm Allahın rizasını qazandırar, həm də insanların məmnun olmasını təmin edər.

## "Deməsinlər" qanununun səhvliyi

"Desinlər" məntiqində olduğu kimi, "deməsinlər" məntiqində də göstərilən meyar, insanların düşüncələrinə müsbət istiqamətdə təsir edə bilər. Burada da bəzi insanların Yaradıcımızın rizasını, dünyada mövcud olma məqsədlərini unudub, yaradılmışların rizasını əsas hədəf kimi götürmələrindən söhbət gedir.

Bu cür düşünən bir insan, ətrafındakıların; "bir avtomobili belə yoxdur, özünə məxsus bir evi belə yoxdur" deməmələri üçün çox çalışar. Yaşadığı cəmiyyətdə məqbul görülən mal-mülk nələrdirsə, onları əldə etmək üçün, sanki bütün həyatını bu işə həsr edər.

Əgər haqqında bəhs edilən insan, bir iş yeri sahibidirsə, bu dəfə də ətrafına qarşı nüfuz sahibi görünməyə çalışar. Digər insanların; "əmri altındakılara belə söz keçirə bilmir" deməmələri üçün, iş yerindəki işçilərə qarşı sərt xarakter göstərər. Başqa biri isə, dostlarının özü barəsində; "heç təmizkar deyil, üstəlik, də bacarıqsızdır" deməmələri üçün, başqa vaxtlarda təmizliyinə diqqət yetirmədiyi evini, onlar hər gəldikdə çox yaxşı şəkildə təmizləyər. Müxtəlif yeməklər hazırlayar. Lakin dostlarının görməyəcəyi mühitlərdə bunlara heç diqqət göstərməz. Yaxud bir insan ətrafındakıların ona; "cahildir, heç mədəniyyəti yoxdur" deməməsi və onu öz aralarına qəbul etməsi üçün, kitabxanasını oxumadığı və oxumağa niyyətli olmadığı kitablarla doldurar. Yaxud da yay tətilinə çıxdıqda sırf insanların özü barəsində; "onu heç kitab oxuyarkən görmədik" deməmələri üçün əlinə kitab alar və oxuyurmuş kimi edər.

İnsanlara tapınma dininin mənsubu olan bir insan, özünü, yaşadığı ictimai mühitin qanunlarına əməl etmək məcburiyyətində hiss edərək onların maraqlandıqları mövzularla da maraqlanırmış kimi göstərər. Məsələn, yuxarı təbəqədən insanların olduğu bir mühitdə, sevmədiyi halda verilmiş bir ev tapşırığı kimi rəsm sərgilərinə gedər, hərraclarda iştirak edər, avtomobil yarışlarını izləyər, pianino çalmağı öyrənər. Yalnız bu insanların onu öz aralarına qəbul etmələri, özlərindən kənarlaşdırmamaları və özü barəsində; "mühitimizə uyğunlaşmır, zidd və uyğunsuz bir insandır, sonradan görmədir, onu sevmirik" deməmələri üçün, özünü əslində sevmədiyi işlər görməyə məcbur edər (təbiidir ki, bunları zövq alaraq etsə, bunun yanlış tərəfi olmaz, lakin burada nəzərdə tutulan insanın səmimiyyətsiz şəkildə, süni rəftarla, məmnun olmadığı halda zövq alırmış kimi görünməsi və özünü xoşlamasa da bunları etməyə məcbur hiss etməsidir).

Bu sayılanlar cahil cəmiyyətlərdə yaşanılan nümunələrdən yalnız bir neçəsidir. Quran əxlaqını yaşamayan istənilən cəmiyyətdə, istənilən mühitdə, istənilən şəhərdə, istənilən məktəbdə bu nümunələrin fərqli növlərinə rast gəlmək mümkündür. Bu məcburiyyət hissi nəticəsində insan özünü bir-birləriylə uyğunluğu olmayan, bir-birləriylə münasibət qura bilməyən saysız insanın və qanunun içində görər. Özünü çıxış yolu olmayan, kabus bənzəri bir həyatın içində yaşamağa məhkum edər. Üstəlik, əməl etməli olduğu qanunlar öz daxilində olduqca ziddiyyətlidir. İnsanların fikir və istəkləri əsasən insandan-insana dəyişər. Çünki ortada, bu insanların fikirlərini ortaq nöqtədə birləşdirəcək, bütün insanların fitrətlərinə cavab verəcək

ağıllı bir qanun yoxdur. Bundan ötrü də, insanlara tapınma dininə tabe olmaq üçün, səy göstərən bir insan heç vaxt istədiyini əldə edə bilməz və ətrafındakı hər kəsin rizasını eyni anda qazana bilməz. Birini məmnun edəcək bir şey etdikdə, bu, digərini məmnun edə bilməz. Bir sözlə, bu batil dinin insan həyatına gətirdiyi sistem tamamilə sonsuz bir dövrdür.

Halbuki Allah rizasına uyan insanlar bu cür mürəkkəb vəziyyətlərlə üzləşməzlər. Məqsədləri yalnız Allahı razı salmaq olduğu üçün, belə çətinliklərlə üzləşməzlər. Allah insanlardan öz fitrətlərinə tam mənasıyla uyğun bir həyat tərzi yaşamalarını istəyər. Rəbbimiz bir-birləriylə uyğunluq içində yaşayacaqları, dünyada və axirətdə rahatlıq tapacaqları həyata yönəldəcək bir rəhbər olaraq Quranı göndərmişdir. Quran əxlaqını yaşayanlar, yalnız Allaha yönəlməyin verdiyi sonsuz sərbəstliyə sahib olarlar. Həyatlarında qarışıqlığa, qərarsızlığa, ziddiyyətə yer olmaz. Həmişə vicdanlarıyla doğrunu anlayar və ən gözəl davranmağa səy göstərərlər. Bundan ötrü də mənəvi cəhətdən qane olmuş, rahat, xoşbəxt və həmişə müsbət ruh halına sahib olarlar. Quranda bu iki insan qrupunun vəziyyəti belə bir nümunə ilə müqayisə edilir:

**Allah bir-biri ilə çəkişən bir neçə şərikli ağası olan kişi ilə tək bir ağası olan kişini məsəl çəkir. Onlar məsəlcə eyni ola bilərmi? Həmd Allaha məxsusdur, lakin onların əksəriyyəti bunu bilmir. (Zumər surəsi, 29)**

Allahın ayədə bildirdiyi kimi, insanlar arasında Allahın rizasını güdənlərlə, bir-birləriylə heç bir uyğunluqları və ortaq cəhətləri olmayan insanların gətirdiyi qanunlara tabe olanların yaşayışları bir olmaz. Yalnız Allaha iman edən insanlar əmrlərini yalnız Allahdan aldıqları və Onun kitabına tabe olduqları üçün, aralarında hər hansı mübahisə və ya müzakirə mövzusu olmaz. Bundan ötrü də, "desinlər", "deməsinlər", "düşünsünlər", "düşünməsinlər" kimi cahil insanların qapıldığı vəsvəsələrə qapılmazlar. Dərindən düşünər və əsil şeyin dünya və buradakı insanların məmnuniyyəti deyil, axirət həyatı və Rəbbimizin rizası olduğuna iman edərlər. Allah başqa bir ayədə isə, insanlara, Özündən başqa ilahlar qəbul etməyin böyük səhv olduğunu belə xatırlatmışdır:

**De: "Allahdan başqa yalvardığınız şəriklər haqda düşündünüzmü? Bir mənə göstərin görüm, onlar yer üzündə nəyi yaradıblar? Yoxsa onların göylərin yaradılmasında şərikliyi var?" Yaxud onlara bir kitab vermişik, onlar da ondakı dəlilə istinad edirlər? Xeyr! Zalımlar bir-birinə ancaq yalan vəd verirlər (Fatir surəsi, 40)**

Lakin cahil insanların həyat tərzini yaşayan insanlarda (daha əvvəlki səhifələrdə ətraflı qeyd etdiyimiz kimi) bu inanc kök salmışdır. Bu vəziyyət onları bir tərəfdən "desinlər" və "deməsinlər" qanunları əsasında yaşamağa məhkum etdiyi halda, digər tərəfdən bəzi yanlış hərəkətlərə sövq edər. Bu rəftarları belə sadalaya bilərik:

## Yalan danışmağı həyatın həqiqəti kimi görənlərin düşdükləri vəziyyət

Özünü insanlara görə nizamlayan bir insan, etdiyi səhvləri gizlətmək üçün yalan söyləmək məcburiyyətində qalacaq. Çünki insanlara tapınma dinində insan özünü mümkün qədər səhvsiz və qüsursuz göstərmək məcburiyyətindədir. Lakin insan olmasının tələbi olaraq, tez-tez səhv etdiyi və cəmiyyət meyarlarına görə qüsurlu cəhətləri olduğu üçün, bu cəhətlərini ancaq yalanlarıyla örtə biləcəyini düşünər. Nəticədə özünü olduğundan fərqli göstərmək üçün həmişə yalan söyləyərək insanları aldatmağa başlayar.

Məsələn, yeni bir məktəbə daxil olan bir gənc, orada istədiyi dost mühitinin arasına qəbul edilmək üçün, özünü çox zəngin, yaxşı bir ailədən gələn, böyük imkana sahib biri kimi tanıdar. Hər danışığında bu istiqamətini vurğulayacaq cümlələr işlədər, tətillərini xaricdə keçirdiyinə, ən bahalı məkanlarda olduğuna dair yalanlar söyləyər. Halbuki bütün bunları yalnız məktəb yoldaşlarının diqqətini çəkmək üçün uydurmuşdur. Həqiqətlər ortaya çıxdığı vaxt, bu insanın orta gəlirli bir ailənin oğlu olduğu, qətiyyən xaricə getmədiyi öyrənilər. Lakin insanlara tapınma dininin tələbləri bu insanı belə bir yalan söyləməyə sövq etmişdir. Özü barəsində; "yaxşı imkanlara sahibdir, yaxşı bir ailəyə mənsubdur" deyilməsi üçün, bütün bunları ortaya atmışdır. İnsanları aldatmış və özünə, cəmiyyətin gözlədiyi meyarlara uyğun saxta şəxsiyyət vermişdir. Bu əsnada, uydurduğu hər yalandan Allahın anbaan xəbərdar olduğunu və bunların hər biri üçün vaxtı gəldikdə Rəbbimizə haqq-hesab verəcəyini düşünməmişdir. Cəmiyyətdə bu cür nümunələrə çox sıx rast gəlinər. Zəmanəmizdə bir çox insan özünü olduğundan fərqli göstərmək, böyütmək, xarakterizə etmək məqsədiylə yalana müraciət edir.

Halbuki saleh müsəlmanlar Allahın edilən bütün hərəkətləri gördüyünü, insanın yalan söylədiyi anları bildiyini unutmazlar. Həqiqətləri, digər insanlardan gizlədə bilsələr də, Allahdan gizlətməyin qeyri-mümkün olduğunu çox yaxşı qavrayarlar. Allah Quranda bu həqiqəti; **"...yerdə və göydə heç bir şey Allahdan gizli qalmaz" (İbrahim surəsi, 38)** ayəsiylə bildirmişdir.

Lakin insanlara tapınma dini, çox insanın qəlbini Allahdan uzaqlaşdıraraq, onları yalan söyləməyə məcbur edər. Bu həyat tərzini "həyatın həqiqəti" kimi təqdim edər və əxlaqsızlığı sanki normal bir insani xüsusiyyətmiş kimi mənsublarına yaşadar. Allahın insanların köksləində gizlədərək açıb bildirmədikləri şeyləri bildiyini, görməzlikdən gəlmələrinə səbəb olar. Onları yalana əsaslanan, səmimiyyətsiz danışıqlar etməyə, içlərindəki həqiqi hissləri gizlədən səmimiyyətsiz baxışlar əks etdirməyə və ya içlərindən heç gəlmədiyi halda yalana əsaslanan sevgi nümayişi etməyə məcbur edər. Bütün bunların nəticəsində isə, dostluqlar, yoldaşlıqlar və qurulan bütün digər insani əlaqələrdə böyük səmimiyyətsizlik hakim olar. Cahil dini yaşayan böyük insan kütlələri həyatlarını, Allaha iman etməyin təmin edəcəyi həqiqi sevgini, yaxın dostluğu və səmimiyyəti heç bilmədən keçirər və sonunda isə, ölərlər. Heç bir mənfəətə əsaslanmayan qarşılıqsız sevgini və cənnət həyatına niyyət edərək qurulan həqiqi dostluğu həyatının tək bir anında belə yaşaya bilməzlər.

## Göstəriş üçün yaşamaq

Cahil sistemdə, maddi dəyərlərə, gücə, pula, mülkə dəyər verildiyini görən insanlar, əvvəlki başlıqda da nümunə verdiyimiz kimi, özlərini ətraflarına olduqlarından daha güclü və zəngin göstərmək məcburiyyətində hiss edərlər. Bunun nəticəsində cəmiyyətdə, hər şeyi ilə şişirdilmiş şəkildə yaşayan bir insan modeli ortaya çıxar. Məsələn, insanların rizasını qazanmaq ardınca qaçan bir insan, özü barəsində; "hər şeyin ən yaxşısına sahibdir" deyilsin məntiqiylə hərəkət etdiyi üçün normal həyat tərzi yaşaya bilməz. Aldığı paltarlar, evinin dekorasiyası, həyat tərzi həmişə göstəriş məqsədli olar. İnsanlar arasına daxil olduqda özünə diqqət və qayğı

göstərmələri, onun yerində olmağı istəmələri üçün, mümkün qədər şişirdilmiş zəngin insan görünüşü təqdim etməyə diqqət göstərər. Danışıqlarında qibtə etdirici, qarşısındakına göstəriş edən bir siyasət tətbiq edər. İnsanların, gördükləri zənginlik qarşısında arxasınca danışmalarını, sahib olduğu nemətlərin dildən-dilə gəzməsini qarşısına məqsəd qoyar. Bunun üçün həmişə sahib olduğu mülklərin çoxluğunu və dəyərini vurğulayacaq söhbətlər edər, paltarlarını ən yaxşı markalardan seçdiyini göstərəcəyi yollar axtarar, həmişə məşhur məkanlarda gəzdiyini hiss etdirəcək mühitlər meydana gətirər.

İnsanlara tapınma dininin mənsubları göstəriş etmə hərisliyi ilə, dünya həyatlarını qəflət içində keçirərlər. Quranda Allah göstəriş hərisliyinin insanların başını o qədər qatıb, onları həqiqətləri görməyəcəkləri sərxoşluğa qərq etdiyini belə xəbər verir:

**Çoxluğa hərisliyiniz başınızı o qədər qatdı ki... (Təkasur surəsi, 1)**

**Bilin ki, dünya həyatı oyun və əyləncə, bəzək-düzək, bir-birinizin yanında öyünmək, var-dövləti və oğul-uşağı çoxaltmaq istəyindən ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, ondan əmələ gələn bitki əkinçiləri heyran edir. Sonra o quruyur və sən onun sapsarı olduğunu görürsən. Sonra isə o çör-çöpə dönür. Kimisini axirətdə şiddətli əzab, kimisini də Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir. (Hədid surəsi, 20)**

Bu göstəriş aludəçisi insanların həqiqi yaşayışları isə, insanlara sübut etməyə çalışdıqlarından çox fərqlidir. Bu insanın həqiqi həyatına baxdığınız vaxt, bütün gününü təmtəraqla bəzədilmiş evinin ən sadə və kiçik otağında keçirdiyini, sahib olduğu dəbdəbəli paltarların yerinə olduqca bəsit, rahat və eyni paltarları seçdiyini görərsiniz. Çünki onun göstəriş arzusu özünə qarşı deyil, digər insanlara istiqamətlidir. Bundan ötrü də, insanların özünü görmədiyi yerlərdə şişirdilmiş və təmtəraqlı həyat tərzi olmaz. Təkcə digər insanlarla birlikdə olarkən, özünü lüzumsuz çətinliyə salar, lüzumsuz bir özünü sübut etmə hərisliyinə qapılaraq sanki öz-özünə zülm edər.

Halbuki mühüm olan insanın, ətrafın tərifini qazanmaq üçün deyil, Quran əxlaqına və öz fitrətinə uyğun şəkildə yaşamasıdır. Çünki fitrətə zidd bir həyat tərzi yaşamaq insanı əldən salar və tez yaşlandırar. Quran əxlaqının gözəlliyindən uzaqlaşmaq insanı, riyakarcasına, sırf başqa insanların diqqətini çəkmək üçün, meydana gətirilən süni rəftarlarla süni danışan, süni davranan, həqiqi sevgi və hörməti yaşaya bilməyən, səmimiyyətsiz birinə çevirər. Bu xarakterə sahib bir insan isə, həyatı boyu rahatlıq tapa bilməz, dinc və xoşbəxt ola bilməz. Bu da, Allahı unudub Onun qullarına qulluq etməyə çalışan bir insana Rəbbimizin dünyada verdiyi mənəvi əzab olar. Axirətdəki əzablarının isə zillət və peşmanlıq olacağı ayələrdə belə bildirilir:

**Pis işlər görənlərə isə pisliyin cəzası onun misli qədər verilər. Onları zillət bürüyər. Onları Allahdan qoruya bilən bir kimsə də yoxdur. Onların üzləri sanki zülmət gecənin parçalarına bürünmüşdür. Onlar Od sakinləridir və orada əbədi qalacaqlar. O gün onların hamısını bir yerə toplayacaq, sonra da müşriklərə: "Siz də, şərikləriniz də öz yerinizdə qalın!" deyəcəyik. Biz onları ayıracağıq. Onların şərikləri deyəcəklər: "Siz bizə ibadət etmirdiniz. Bizimlə sizin aranızda Allahın şahid olması yetər. Doğrudan da biz sizin ibadətinizdən xəbərsiz idik". Orada hər bir**

**nəfər keçmişdə törətdiklərinin acısını çəkəcəkdir. Onlar Allaha – özlərinin həqiqi Himayədarına qaytarılacaq və uydurduqları bütlər onlardan uzaqlaşıb qeyb olacaqlar. (Yunis surəsi, 27-30)**

## Səmimiyyətsizlik sıxıntıların mənbəyidir

Əvvəlki hissələrdə də ifadə etdiyimiz kimi, insanların xoşuna gəlmək arzusunun cahil insanlarda yaratdığı digər bir rəftar pozuntusu da səmimiyyətsizlikdir. Lakin bu səmimiyyətsizlik yalnız ümumi bir xüsusiyyət kimi deyil, insan həyatının hər anını əhatə edən bir rəftar pozuntusu şəklində ortaya çıxar. Səmimi ola bilməmək, yəni inandıqlarıyla göstərdiyi rəftarların bir-birini tutmaması bu insanları güclü sünilik, təbii danışmamaq, təbii mimikaların, təbii səs və baxışın ortaya çıxa bilməməsi kimi problemlərlə üz-üzə qoyar.

Belə bir insan gülərkən ruhu bir şeydən zövq aldığı üçün deyil, yalnız qarşı tərəf özündən bunu gözlədiyi üçün gülər. Diqqətli görünməyin özünə müsbət xal qazandıracağını düşündüyü mühitlərdə, üzüylə və danışıqlarıyla diqqətli olduğunu vurğulamağa çalışar. Danışıqları, ağlından keçən həqiqi duyğuları əks etdirmir. Digər insanlarla arasına təbii düşüncələrinin anlaşılmasına mane olacaq bir pərdə çəkər. Bu pərdə onun bir teatr aktyoru kimi, rol oynamasını təmin edər. Bütün həyatı bu pərdənin qarşısında riyakarlıq edərək, mühitinə və insanına görə xarakter dəyişdirərək, qarşı tərəfin gözləntilərini təmin etməklə keçər. İnsanların hər birini Allahdan müstəqil, azad varlıqlar kimi gördüyü üçün, hamısının rizasını qazanmaq, hamısının gözləntilərinə cəmiyyətin özünə öyrətdiyi kimi əzbərdən cavablar vermək üçün səy göstərər. Lakin bu vəziyyət cahil cəmiyyətdə çox geniş yayıldığı üçün, insanlar necə bir bəla içində yaşadıqlarını elə də görməzlər. İçlərindəki sıxıntı və narahatlığın mənbəyinin bu süni xarakter olduğunu da düşünməzlər. Bütün bu suniliyi və səmimiyyətsiz halı yalnız Quran əxlaqını yaşayan, insanların rizasını axtarmayan, yalnız Allaha təslim olmuş bir insan analiz edə bilər və bu rəftarın verdiyi narahatlığın səbəbini tapa bilər. İnsanlara tapınma dininə iman edib eyni batil qanunları mənimsəmiş digər bir çox insan isə, bütün bunları "həyatın həqiqətləri", "həyatın insana yüklədiyi məsuliyyətlər" kimi ifadələrlə qəbul edər. Allah, iman edən qullarını səmimiyyətsizliyin yaratdığı bu sıxıntıdan uzaq tutar. Onlara, insan fitrətinə uyğun yaşamağın gətirdiyi azadlığın nemətini daddırar. Möminlər harada və kimin qarşısında olsalar da, çətin və ya asan hansı şərtlər altında olsalar da, Allahın hər an yanlarında olduğunu bilərlər. Bir məkanda üç nəfər olsalar burada dördüncü olaraq Allahın olduğunu bilərlər. Quranda bu həqiqət belə bildirilir:

**Məgər Allahın göylərdə və yerdə olan hər şeyi bildiyini görmürsən? Üç nəfərin arasında gedən elə bir xəlvəti söhbət yoxdur ki, onların dördüncüsü, beş nəfərin də altıncısı O olmasın. İstər bundan az, istərsə də çox olsunlar - harada olursa olsunlar, Allah onların yanındadır. Sonra Qiyamət günü onlara nə etdiklərini xəbər verəcəkdir. Allah hər şeyi bilir. (Mücadilə surəsi, 7)**

Bundan ötrü də, əsil qorxulmalı və razı salmaq üçün əsil səy göstərilməli varlığın Allah olduğuna qəlbən iman edərlər. Bu güclü inanc möminlərdə, insanların qarşısında olsalar da, Allahın hüzurunda olduqlarını dərk edən səmimi, təbii bir rəftar ortaya çıxarar. Onları, hər cür süni danışıq və rəftardan, səmimiyyətsiz düşüncələrdən və saxta hərəkətlərdən uzaq tutar.

## İnancı gizlətmək meylinin yanlışlığı

Bəzi insanların dinin tələblərini yerinə yetirənləri kənarlaşdırdıqları, onlara öz zəif ağıllarınca, geri düşüncəli, qeyri-müasir insanlar kimi baxdıqları batil inanc sistemində yaşayan və Allaha iman edən bəzi insanlar, inanclarını gizlətməyə ehtiyac duyarlar. Xüsusilə insanlara tapınma dininin güclü şəkildə yaşandığı cəmiyyətlərdə insanların iman edənlərə olan yanlış yanaşma tərzi, bir çox insanın ibadətlərini gizlincə etməsinə səbəb olur. İnanclarından ötrü cəmiyyət tərəfindən kənarlaşdırılacaqlarını, işlərini, ictimai statuslarını itirəcəklərini zənn edən bir çox insan bu dünyəvi itkilər yerinə inanclarından və dolayısilə ibadətlərindən güzəştə getmək səhvini edər. Çünki ümumiyyətlə, insanların Allahı tanımadığı və din mövzusunda cahil olduqları cəmiyyətlərdə din əxlaqı tamamilə yanlış təqdim olunar. Guya dünyaya qapalı olmaq, qeyri-müasir olmaq və ya dünyadakı hər cür hadisəyə qarşı əks rəftar göstərib, minlərlə il əvvəlki bir həyat tərzinin həsrətini çəkmək kimi, həqiqətlə heç bir əlaqəsi olmayan anlayışla eyni mənada tutulur. Dindar insanların da belə bir dünyagörüşünə sahib olduğu ön mühakiməsi hakim olur.

Bu yanlış təsvirlər bəzi insanların dindən və dindarlardan çəkinməsinə səbəb olur. Dolayısilə bu insanlar din əxlaqını öyrənməkdən də uzaq qalırlar, Allaha inandıqları halda cəmiyyət tərəfindən bu cür bir insan kimi tanınmaq istəmədikləri üçün imanlarını gizlədərlər. İnsanların həqiqəti öyrəndikləri təqdirdə özləriylə olan əlaqələrini kəsəcəklərini, bunun nəticəsində maddi və mənəvi ziyana düçar olacaqlarını zənn edərlər.

Halbuki həqiqi mənada Allaha iman edən bir insan Quranın mahiyyətini qavrayar. Allahın qullarından nələr istəyib, nələr istəməyəcəyini çox yaxşı bilər. Həqiqi müsəlmanların, yuxarıda bəhs edilən təriflərdən çox fərqli anlayış və qavrayışa sahib olduqlarını anlayar. Din əxlaqının insanı fitrətinə qaytardığını, bütün dünya və axirət nemətlərini inananların önünə sərdiyini anlayar. Necə ki, Quranda Allah insanları cəhalətdən və cahil hökmlər verməkdən çəkindirir. Ayədə belə buyurulur:

**Onlar hələ cahiliyyə hökmünümü istəyirlər? Qəti inanan bir camaat üçün Allahdan daha gözəl olan kimdir? (Maidə surəsi, 50)**

Həmçinin Quranda möminlərin cahil insanlardan, yəni özlərinə izah edilməsinə baxmayaraq, Allah və dinlə keçmiş batil inanclarından imtina etməməyə meylli olan insanlardan üz döndərmələri əmr edilir. Bunu xəbər verən ayə belədir:

**Sən bağışlama yolunu tut, yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər. (Əraf surəsi, 199)**

Ayələrdən göründüyü kimi, İslam dini cəhalətlə fikri mübarizə aparmağı müdafiə edir. Bu ruha malik insanlar sahib olduqları yüksək mədəniyyət və rəftarla yanaşı, Quranın elminə sahib olmalarının təsiriylə digər insanların özləri barəsində nə düşünəcəklərinə əhəmiyyət verməzlər. Ən doğru olanı etməyin arxayınçılığı ilə, yalnız Allahın rəhmətini, rizasını və cənnətini qazanmaq arzusunda olarlar.

## Allahın rizasını qazanmağı qarşılarına məqsəd qoyanlar dünyada və axirətdə nicat taparlar

İnsanlar ancaq haqq din əxlaqını yaşayaraq sağlam ağıl və ruha sahib ola bilərlər. Çünki din əxlaqını yaşamaq, insanı dünyəvi bağlardan xilas edər. İnsanı yalnız Allaha və Onun haqq kitabındakı əmrlərə qarşı məsul vəziyyətə gətirər. Bu, insanlar üçün çox böyük asanlıqdır. Allah Quranın bir çox ayəsində İslam dininin asanlığından bəhs edir **"və sənə asan olanda müvəffəqiyyət verərik" (Əla surəsi, 8)** deyə bildirərək müsəlmanların bu asanlıq içində müvəffəqiyyət əldə edəcəklərini xəbər verir. Başqa bir ayədə də, göndərilən elçilərin mühüm bir xüsusiyyətinin insanların üzərinə yüklənilən ağır yükləri və çətinlikləri, qanunları, batil inancları yox edib onları azad etmək olduğunu bildirilir. Nicat tapan insanların da bu əmrlərə tabe olan insanlar olacağı belə müjdələnir:

...**O peyğəmbər onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun (Quranın) ardınca gedənlər isə nicat tapanlardır". (Əraf surəsi, 157)**

Ancaq üzərindəki dünyəvi zəncirlərdən xilas olmuş, ağlını, cahil cəmiyyətin məhsulu olan fikirlərdən qurtarmış, təmiz ağıl sahibi bir insan azad düşünə bilər. Belə bir insan digər insanların düşüncələrindən və tələblərindən müstəqil şəkildə yalnız Allahı razı salacaq qərarlar ala bilər. Bunun səbəbi, meyar olaraq yalnız Quranda bildirilən hüdudlara əsaslanmasıdır. Bundan savayı, kitabın əvvəlindən bəri üzərində dayandığımız kimi, insanların özü barəsində nə söyləyəcəklərinin, nə düşünəcəklərinin və ya barəsində hansı qənaətə gələcəklərinin əhəmiyyəti olmaz. İman edən bir insan üçün Allahın rizasını qazanmaqdan, Onun əmr etdiyi şəkildə yaşamaqdan başqa bir həyat tərzi yoxdur. Məhz bu həqiqəti qavrayan saleh möminlər cahil cəmiyyətin batil dinlərindən biri olan "insanlara tapınma dini"ni heç vaxt yaşamazlar.

Allah Quranda yaşadıqları cəmiyyətin İslam əxlaqından uzaq quruluşundan uzaqlaşan və özlərini Allaha həsr edən insanlara dair bir çox nümunə vermişdir. Bu şərəfə nail olmuş qruplardan biri Kəhf surəsində haqqlarında ətraflı məlumat verilən Əshabi-kəhfdir. Ayələrdə belə buyurulur:

**Biz onların əhvalatını sənə olmuş bir həqiqət kimi söyləyirik. Onlar Rəbbinə iman gətirmiş gənclər idi. Biz də onların hidayətini artırdıq. Onlar kafir hökmdarın qarşısında durub: "Rəbbimiz göylərin və yerin Rəbbidir. Biz heç vaxt Ondan başqa məbuda ibadət etməyəcəyik. Əks halda olduqca böyük bir küfr danışmış olarıq!" – deyərkən onların qəlbinə qüvvət verdik. Cavanlardan biri o birilərinə dedi: "Bizim bu xalqımız Allahdan başqa məbudlar qəbul etdi. Bəs nə üçün onlar buna aid (bütlərə dair) bir dəlil gətirmədilər? Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər?! Madam ki, siz onları və Allahdan savayı ibadət etdiklərini tərk etdiniz, onda mağaraya sığının ki, Rəbbiniz sizə Öz mərhəmətini geniş etsin və işinizdə sizin üçün fayda hazırlasın. (Kəhf surəsi, 13-16)**

Tarix boyu Kəhf-əhli kimi özünü Allaha həsr etmiş, batil inanclardan və insanların rizasına istiqamətli dünyəvi ehtiraslardan xilas olan bir çox saleh insan yaşamışdır. Bu insanlar arasında ən diqqət çəkən nümunələrdən biri də Quranda adı çəkilən mübarək bir insan olan hz. Məryəmdir. Növbəti hissədə hz. Məryəmin "aləmlərin qadınlarından üstün edilməsini" təmin edən yüksək əxlaqına yer verəcəyik.

# Qurandan gözəl bir nümunə: hz. Məryəm xarakteri

Quranda Allah, hz. İsa (ə.s)-ın anası olan hz. Məryəmi yalnız Özünə yönələn bir qul kimi nümunə verir. Hz. Məryəm, dünyaya gəlmədən əvvəl anası tərəfindən yaxşı qul olması və bütün dünyəvi bağlardan qurtulmuş olması istəyi ilə Allaha nəzir edilir:

**Bir zaman İmranın arvadı demişdi: "Ey Rəbbim! Mən bətnimdəkini hər cür bağlılıqdan xilas edilmiş qul olması üçün Sənə nəzir etdim. Məndən qəbul et! Həqiqətən, Sən Eşidənsən, Bilənsən". (Ali İmran surəsi, 35)**

Belə mühüm bir istəklə Allaha nəzir edilən hz. Məryəmlə əlaqədar Qurandakı digər ayələr, Allahın hz. Məryəmin anasının bu duasını qəbul etdiyini göstərir. Ali İmran surəsində hz. Məryəmin olduqca gözəl və təmiz əxlaqla yetişdirildiyi belə bildirilir:

**Bundan sonra Rəbbi onu gözəl şəkildə qəbul etdi və onu gözəl bir bitki kimi yetişdirdi... (Ali İmran surəsi, 37)**

Allah, hz. Məryəmi seçdiyini və onu üstün etdiyini isə, belə bildirir:

**Mələklər: "Məryəm, həqiqətən, Allah səni seçdi, təmizlədi və seçib aləmlərin qadınlarından üstün etdi," demişdi. (Ali İmran surəsi, 42)**

Həmçinin Quranda hz. Məryəmə, Allaha sidq-ürəkdən boyun əyən, itaətkar, Allahın əmrlərinə tabe olan bir insan olması əmri verildiyi də bildirilir:

**"Məryəm, öz Rəbbinə sidq-ürəkdən itaət et, səcdə qıl və rükuya gedənlərlə birlikdə rükuya get." (Al-i İmran surəsi, 43)**

Hz. Məryəm həyatının müəyyən dövründə ailəsindən ayrılaraq şərq tərəfində bir yerə çəkilmişdir:

**Kitabda Məryəmi də yad et. O zaman o, ailəsindən ayrılıb şərq tərəfdə olan bir yerə çəkilmişdi. (Məryəm surəsi, 16)**

Burada yalnız yaşayan hz. Məryəm, bir möcüzə olaraq hz. İsa (ə.s)-ın doğuş xəbərini də bu vaxt almışdır. Cəbrayıl vasitəsilə özünə hz. İsa (ə.s)-ın doğumu müjdələnmişdir:

**Mələklər dedilər: "Ey Məryəm! Həqiqətən, Allah Öz tərəfindən bir kəlmə ilə sənə müjdə verir. Onun adı Məryəm oğlu İsa əl-Məsihdir. O, dünyada və axirətdə seçilmiş, hörmətli və şərəflidir". (Ali İmran surəsi, 45)**

Hz. Məryəm, Allahdan bir möcüzə olaraq, özünə heç bir insan əli toxunmadan hz. İsa (ə.s)-ya hamilə qalmış və sonra tənha bir yerdə tək başına hz. İsa (ə.s)-ı dünyaya gətirmişdir (Məryəm surəsi, 20). Allahın özü üçün müəyyənləşdirdiyi taleyə sidq-ürəkdən boyun əyən hz. Məryəm, bu hadisələrdən sonra qövmü tərəfindən özünə atılan bütün böhtanlar qarşısında təkcə Allaha təvəkkül edib Ona sığınmışdır. Quranda hz. İsa (ə.s)-ın doğumundan əvvəl və sonra meydana gələn möcüzəvi hadisələri qavraya bilməyən bu qövmün, hz. Məryəmə yönəlmiş ağır ittihamları və incidici sözləri belə bildirilir:

**Məryəm körpəni qucağına alıb öz tayfasının yanına gətirdi. Onlar dedilər: "Ey Məryəm! Sən yaramaz (və ya görünməmiş) bir iş tutmusan. Ey Harunun bacısı! Atan pis kişi, anan da pozğun deyildi". (Məryəm surəsi, 27-28)**

Başqa bir ayədə isə, qövmün inkara sapmış olduğu və hz. Məryəm haqqında böyük yalanlar və böhtanlar ortaya atdığı belə bildirilir:

**Onlar həm də küfr etdiklərinə və Məryəmə böyük böhtan atdıqlarına görə... (Nisa surəsi, 156)**

Allah, hz. İsa (ə.s)-ı götürüb qövmünə geri qayıtmasını istədikdə hz. Məryəm Allahın əmrinə razı olmuş və insanların özü üçün nə düşünəcəklərini, barəsində nə cür böhtanlar atacaqlarına əhəmiyyət vermədən Allahın əmrinə tabe olmuşdur. Açıqlaması olduqca çətin bir hadisə içində olmasına baxmayaraq, bunu bəhanə gətirməmiş və özündən istənilənі tam şəkildə yerinə yetirmişdir. Özü barəsində qövmünün atdığı bütün ittihamlara əsil müsəlmana yaraşan şəkildə cavab vermişdir. Allahı unudub insanları ilahlaşdıran (Allahı tənzih edirik) cahillərdən çox fərqli əxlaqa sahib olduğunu, Allahın əmrlərinə tabe olaraq və insanların öz haqqındakı düşüncələrinə əhəmiyyət verməyərək göstərmişdir. Allah Quranda hz. Məryəmin həyatından verdiyi bu nümunə ilə insanlara mühüm hikmətlər göstərir. Çünki hz. Məryəm dünyada heç kimin başına gəlməmiş, bənzəri olmayan, möcüzəvi bir hadisə ilə imtahan edilmişdir. Olduqca çətin və səbir tələb edən bir mühitdə insanların təzyiq və böhtanları qarşısında gözəl səbir göstərmişdir. Bütün bunların nəticəsində isə, Allah hz. İsa (ə.s)-ı hələ beşikdə olarkən danışdıraraq anasını, insanların böhtanlarından təmizə çıxartmışdır.

Eynilə hz. Məryəm kimi, sidq-ürəkdən Allaha bağlı olan hər insan mütləq Allahın himayəsi altındadır. İnsanlar özü barəsində hər nə danışsalar və ya hər nə düşünsələr də, bunların Quran əxlaqını yaşayan bir insan üçün heç bir əhəmiyyəti yoxdur. Çünki eynilə hz. Məryəm nümunəsində olduğu kimi, əhəmiyyətli olan möminlərin Allah qatındakı mövqeləridir.

## Hz. Məryəmin istəyi yalnız Allahın rizasını qazanmaq idi

**Adnan Oktar:** Hz. Məryəm tərtəmiz, dəyərli bir anamızdı, maşaAllah. Bütün aləmlərə nümunədir, bütün aləmlərin qadınlarından üstün yaradılmışdır. Çox mübarək bir varlıqdır. Bildiyiniz kimi, bir pərdə çəkdi, tamamilə özünü Allaha təslim etdi, nə evlilik, nə avtomobillər, nə

evlər, nə də gələcək ardınca qaçırdı. Sadəcə bütün arzusu, bütün məqsədi Allahın rizasını qazanmaqdı, bütün fikrini buna cəmləşdirmişdi. *(23 mart 2010, www.HarunYahya.tv müsahibəsindən)*

# İnsanlara tapınma dinindən xilas olmaq üçün düşünmək

Bütün kitab boyunca incəlikləri və nümunələriylə göstərdiyimiz insanlara tapınma dini, bu gün bir çox mənsubu, bir çox inananı olan batil bir dinə çevrilmişdir. İnsanların bir hissəsi, Allahın qüdrətini və axirətin yaxınlığını qavraya bilmədikləri üçün, bu batil dini və tətbiqlərini öz ağıllarınca çox məqbul qarşılayırlar. Halbuki bu əsassız din, onların həyatına qarışıqlıq, bədbəxtlik, qərarsızlıq kimi bir çox bəlanı gətirir, Allahın rizasını qazanmağa çalışmamağın yaratdığı sıxıntını həyatları boyu yaşamalarına səbəb olur. Qarşılarındakı insanların Allahdan müstəqil gücə sahib varlıqlar olduqlarını düşünən bu insanlar, həyatlarını onların razılığını qazanmaq üçün keçirərlər.

Halbuki insanın özü kimi yaradılmış varlıqlara ilahlıq isnad etmək kimi, böyük səhvliyə yol verməsi (Allahı tənzih edirik), onun bütün həyatı boyu insanlara kölə kimi bağlı yaşamasına və onların boyunduruğu altına girməsinə səbəb olar. Belələri insanlara özlərini bəyəndirmək üçün həqiqi xarakterlərindən savayı, səmimiyyətsiz, süni və çətin bir həyat yaşamaq məcburiyyətində qalarlar. Bunun nəticəsində isə, həyatları dözülməz hal alar. Hər anlarına narahatlıq, gərginlik və hüzn hakim olar. Bu batil sistemin cəmiyyətlər içində yayılması nəticəsində isə, insani heybəti olmayan, eyni bir fabrikdən çıxmış kimi bir-birinin surəti olan bir təsvirə, yanlış bir dünyagörüşünə və pis bir əxlaqa sahib, şüuru tam açıq olmayan, dialoqa keçilməsi olduqca çətin, söz anlamaz bir insan kütləsi ortaya çıxardar.

Bütün bunların səbəbi, insanların mütləq hakim olan Allahı tərk edib cahilcəsinə insanları ilahlaşdırmalarıdır (Allahı tənzih edirik). Allah, insanların başqa ilahlar qəbul etmələrindən ötrü dünyada fəsad, fitnə və qarışıqlıq çıxdığını Quranda belə xəbər verir:

**İnsanların öz əlləri ilə etdiyi əməllərinin nəticəsi olaraq quruda və dənizdə fəsad törəyir ki, Allah onlara, etdiklərinin bir qismini daddırsın. Bəlkə, onlar haqqa qayıdalar. (Rum surəsi, 41)**

Kitab boyu bəhs etdiyimiz bu batil sistemin mürəkkəb və təsirliymiş kimi görünməsinə baxmayaraq, səmimi insan üçün bunlardan bir anda xilas olmaq olduqca asandır. Təməlində, böyük düşüncə tənbəlliyinə əsaslanan bu vəziyyəti aradan qaldırmaq üçün, izləniləcək ən təsirli yol, bu tənbəlliyə qarşı ciddi fikri mübarizə aparmaqdır.

Düşünmək, insanın özü və yaşadığı dünya barəsindəki həqiqətləri qavraması üçün, mühüm bir yoldur. Dərin düşünmək isə, insanın yeni və doğru bir dünyagörüşü formalaşdırmasına vəsilə olar. Səmimi şəkildə düşünən bir insan Allahın yaratmasındakı üstünlüyünü, Onun mütləq hökm sahibi olduğunu daha yaxşı qavrayar. Düşünmək; insanların qənaətinə nə qədər təsir göstərməyə və ya onları nə qədər razı salmağa çalışsa da, heç bir insanın Allahın təqdirindən kənara çıxa bilməyəcəyini görməsini təmin edər.

Həmçinin düşünmək insanın, Allahdan başqa bütün varlıqların, aciz və ölümlü olduğunu qəti şəkildə dərk etməsinə kömək edər. Bunlar kimi imani cəhətdən olduqca mühüm mövzuları düşünərək anlayan, ağlı başında bir insan üçünsə, insanları razı salmağa istiqamətli bu cahil dindən xilas olmaq çox asandır. Təkcə qısa müddət düşündükdən sonra, insanların nə dediyinə, nə düşündüyünə və ya necə olmasını istədiklərinə əhəmiyyət verməyən, yeganə meyarı Allahın

rizasını qazanmaq olan, iradəsi güclü, olduqca şəxsiyyətli və şüurlu, Allahdan qorxan, gözəl əxlaqlı müsəlman olaraq həyatına davam edər.

Quranda bildirilən hz. Yusif (ə.s)-ın zindan yoldaşlarına etdiyi təbliğ bu mövzuda üzərində düşünülməli bir nümunədir. Ayələrdə belə buyurulur:

**"Ey mənim zindan yoldaşlarım! Ayrı-ayrı tanrılar yaxşıdır, yoxsa Tək olan, hər şeyə Qalib gələn Allah? Ondan başqa ibadət etdikləriniz sizin və atalarınızın adlandırdığınız adlardan başqa bir şey deyildir. Allah onlara dair heç bir dəlil nazil etməmişdir. Hökm yalnız Allahındır. O əmr etmişdir ki, yalnız Ona ibadət edəsiniz. Doğru din budur, lakin insanların çoxu bunu bilmir". (Yusif surəsi, 39-40)**

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez

bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz

vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində

yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast

gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. *(J. Rennie, “Darwin’s Current Bulldog: Ernst Mayr”, Scientific American, Aralık 1992)*

Təkamülçülər “*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz.

Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür”. *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin formulu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən

böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat

modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

### Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində

düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların

toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

Tarix boyu bəzi cəmiyyətlərdə, insanlar Allahın bildirdiyi hökmlərdən, insanlara əmr etdiyi həyat tərzindən xəbərsiz şəkildə özlərini cəmiyyətin və yaşadıqları ictimai mühitin gözləntilərini yerinə yetirməyə şərtləndiriblər.

Bəzi insanlar Allahın gücünü, Onun rizasını qazanmağın nə qədər əhəmiyyətli olduğunu, Onun əmrlərinə tabe olmadıqda Allah Qatında necə bir qarşılıq alınacağını demək olar ki, heç düşünmürlər. Halbuki həmin insanlar ətraflarındakı insanların özləri barəsində nə düşündükləri, özlərindən nələr gözlədikləri, onlara özlərini daha çox bəyəndirmək, daha çox sevdirmək üçün nələr etməli olduqları kimi saysız mövzularla yaxından maraqlanarlar.

Bu kəslər insanlara, Allahdan daha çox sevgi və bağlılıq yönəldər və insanların bir-birinə ibadət etdiyi batil bir sistemin içinə həbs olunarlar. Bu batil din Allahı tərk edib insanlara tapınmağı tələb edir. İnsanlara hərisliklə bağlanmağı simvolizə edən bu batil inanc; "insanlara tapınma dini"dir.

Bu kitabda, insanların həm dünyalarını, həm də axirətdəki əbədi həyatlarını böyük təhlükə altına salan və onları, Allah yerinə Onun yaratmış olduğu insanları ilah qəbul etməyə məcbur edən bu şeytani sistemin quruluşu zəmanəmizdən bəzi nümunələr verilərək izah edilir. İnsanlara, özləri üçün hələ vaxt olduğu halda, bu batil dinin cadusundan xilas olmaları üçün nələr etməli olduqları bildirilir.